

## Ceyhun Bayramov Ermənistanın törətdiyi ekoloji terrorla bağlı məlumat verdi

*Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Ətraf Mühit Proqramının (UNEP) Avropa üzrə Regional Nümayəndəliyinin direktoru Bruno Pozzi ilə görüşüb. Bu barədə "Unikal"a Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib. Görüşdə işçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri və Azərbaycanda səfərdə olan BMT-nin Ətraf Mühit Proqramının ekspert qrupunun üzvləri iştirak ediblər.*

Səh.2


# UNİKAL

№10 (2095) 18 mart 2022-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




## Elmar Məmmədyarovdan sensasiyalı gediş...

### Sabiq nazir yaddaş pozğunluğundan əziyyət çəkir, yoxsa onun hansısa gizli niyyəti var?

*Ötən həftə sabiq xarici işlər naziri Elmar Məmmədyarov mediaya hazırkı fəaliyyəti haqda danışıb.*

*"İndi özüm üçün işləyirəm. Əlbəttə ki, 16 il gərgin qrafiklə xarici işlər naziri işləmişəm. Belə vəzifədə olan insan həftədə 7 gün, 24 saat çalışır, çünki məsuliyyətli işdir. İndi isə qrafikim rahatdır. İdmanla məşğul oluram, internet resurslarından xəbərləri, dünyada gedən prosesləri izləyirəm", - Məmmədyarov deyib.*

*Açığı, Elmar müəllimin bu sözlərində diqqəti çəkən iki məqam var. Bu məqamlardan biri (həm də birincisi!) əslində kifayət qədər nonsensdir. O bildirir ki, xarici işlər naziri olarkən 7 gün, 24 saat çalışırmış, çünki... məsuliyyətli işdir!*

Səh.8



Səh.9

## Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına mane olurlar

## "Azərbaycan lokal hərbi əməliyyatlar həyata keçirə bilər"



*Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Unikal" qəzetinə müsahibə verib. O, son günlər Qarabağ ərazisində yerləşən qanunsuz erməni silahlı birləşmələrinin təxribatları, rus sülhməramlı qüvvələrinin fəaliyyətsizliyi və digər məsələlərlə bağlı fikirlərini bölüşüb.*

Səh.4

## MSK Şahin Seyidzadənin mandatına xitam verdi



*Mərkəzi Seçki Komissiyasının iclası başlayıb. "Unikal" xəbər verir ki, iclasda Şahin Seyidzadənin deputat səlahiyyətlərinə xitam verilməsi müzakirəyə çıxarılıb. Mərkəzi Seçki Komissiyasının qərarına əsasən Ş.Seyidzadənin deputat səlahiyyətlərinə xitam verilib.*

Səh.2

## Elxan Məmmədovun "vurulmasının" pərdəarxası



*Dünən AFFA İcraiyyə Komitəsinin videokonfrans formatında iclası keçirilib. Müzakirələrdən sonra bəzi qərarlar qəbul olunub. Qurumun 2020-ci il yanvarın 28-də təşkil olunan Konfransında Nizamnaməyə uyğun olaraq həyata keçirilmiş struktur dəyişikliyi, AVRO-2020-nin və AVRO-2020 ilə bağlı hesabat işlərinin başa çatması...*

Səh.5

# Oksana Şəhriyara ərə getməyini niyə gizlədib?



***"Şəhriyarla reklam kastinqində tanış olmuşuq. O, "Qəfəs" şousundan çıxmışdı, tanınırdı, mən isə yox. İkimiz də seçildi. 2008-ci ildən dostluğumuz başladı. Bir çox yerdə eyni səhnəni bölüşdük.***

2017-ci ildə "Lal yuxu" serialı çəkdik, ikimiz də baş qəhrəman idik. Dost kimi bir-birimizi başa düşürük. Orada sevgili obrazını oynayırdıq. Orada çox böyük sevgini yaşadıq. Şəhriyara da ordan keçdi bu hiss".

Bu sözləri rəqqasə-aktrisa Oksana Rəsulova "10-da görüşək" proqramında deyib. Sənətçi həyat yoldaşı, aparıcı Şəhriyar Əbilovla evliliyindən danışıb: "Efirdə bunu deyəcəyini bilmirdim. İstəyirdik açıqlayaq... Bir ata kimi Şəhriyarı başa düşürəm. Hər kəs öz oğluyla foto paylaşırdı. Şəhriyar da qalırdı ki, niyə edə bilmirəm? İstəyirdik Osman müəyyən yaşa çatsın, açıqlayaq. İstədik uşaq dil açsın, danışsın, sonra açıqlayaq. Həm də uşaq elə təmizdir ki, ananın belə gözü dəyə bilər".

Qeyd edək ki, Oksana və Şəhriyar cütlüyünün Osman adlı oğlu var.

# Rafael və Sədaqət Dadaşovanın arxiv fotolarını yaydı



***Xalq artisti Brilliant Dadaşova mərhum əmisi oğlu Rafael Dadaşovun və bacısı Sədaqətin evli olarkən çəkilən fotolarını paylaşıb.***

Müğənni aktyorun ölüm ildönümü ilə əlaqədar bu görüntüləri yayımladığını vurğulayıb.

Şəkillərdə Rafael və Sədaqət cütlüyünün oğlu Emil, qızı Nigar yer alıb. Diqqət çəkən məqam isə B.Dadaşovanın Rafael Dadaşovun digər qızı Səidə Dadaşovanın fotosunu yerləşdirməməsi olub.

Qeyd edək ki, Səidə ilə Brilliant Dadaşova küsülüdür. Onlar dəfələrlə bir-birinin ünvanına qalmaqallı sözlər deyiblər. Rafael Dadaşov və Sədaqət Dadaşova ayrılıb. S.Dadaşova başqa bir böylə eşq yaşayıb, onun bu münasibətdən bir övladı dünyaya gəlib. Aktrisa kimi fəaliyyət göstərən Sədaqət bir müddət Türkiyədə yayımlanan evlilik proqramına qatılıb və bunla gündəmə gəlmişdi. Hazırda Sədaqətlə qızı Səidə də danışmır.



# "Bu fotoya görə yazılmayan təhqir qalmadı" - Damla

***Xəbər verdiyimiz kimi, müğənni Damlanın sinə dekolteli geyimi sosial şəbəkədə tənqid edilib.***

"Unikal" xəbər verir ki, sənətçi yazılan mənfi rəylərə cavab verib. "Bu fotoya görə yazılmayan təhqir, tənqidi şərhiniz qalmadı. İdarə etdiyim məclislərdə gənc gəlinlərimizin əksəriyyəti açıq sinə dekolteli gəlinliklər geyinirlər. Hələ bəzi ailəli xanımlarımızın toy libaslarını görəndə bəzən düşünürəm ki, evdar xanım mən, onlar səhnə adamlarıdır. Bir az böyütməsək" deyə, Damla şərhində bildirib.

# "Aynuru öpəndə anası, balası yadıma düşür" - Niyam

***Müğənni Niyam Salami həmkarı Aynur Dadaşovanı dodağından öpməsindən danışıb.***



Bu haqda "7 canlı" verilişində danışan ifaçı peşman olmadığını deyib. "Aynuru öpəndə anası, balası yadıma düşür. Bu yaxınlarda səhnədə öpdüm, əcəb etdim. Qızımdır, bacımdır, əzizimdir. Ailəsi var" deyə, Niyam bildirib.

Qeyd edək ki, Niyam restoranda səhnədə Aynuru dodağından öpüb. Onların bu görüntüsü sosial şəbəkədə paylaşılıb.

# Brilliant Dadaşova ailəsinin arxiv fotolarını paylaşdı

***Xalq artisti Brilliant Dadaşova valideynlərinin arxiv fotolarını yayımlayıb.***



Müğənni paylaşdığı şəkillərdə atası Süleyman Dadaşov və anası Qızxanım Dadaşova yer alıb.

İfaçı şəkillərdən birinin 1969-cu ildə çəkildiyini bildirib. Müğənni nənəsi Xeyransa Dadaşova, Məlik Dadaşovun da arxiv görüntülərini izləyiciləri ilə bölüşüb.

"Bayramlarda əzizlər yad edilir" deyə, B.Dadaşova bildirib.

Qeyd edək ki, Qızxanım Dadaşova məşhur qarmon ifaçısı olub. O, avtomobil qəzasında dünyasını dəyişib.

# Ramiz Mehdiyevin AMEA-ya getmə səbəbi açıqlandı



***Bir müddət əvvəl istefa ərizəsi yazan Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Ramiz Mehdiyevin AMEA-ya getmə səbəbi məlum olub.***

"Unikal" xəbər verir ki, AMEA-nın Rəyasət Heyətinin mətbuat katibi Azadə Balayeva Oxu.Az-a bildirib ki, o, akademiyanın həqiqi üzvüdür:

"Onun oraya gəlməsində qəribə bir hal yoxdur. Məndə olan məlumata görə, Ramiz müəllim ötən gün şəxsi əşyalarını götürmək üçün AMEA-ya gəlib".

Qeyd edək ki, ötən gün R.Mehdiyev ötən gün AMEA-ya gəlmişdi.

Xatırladaq ki, fevralın 19-da AMEA-nın ümumi yığıncağında onun istefa ərizəsi qəbul edilib.

# Elxan Məmmədov bu vəzifəsini itirdi

***AFFA-nın baş katibi dəyişib. "Unikal" xəbər verir ki, bu, qurumun İcraiyyə Komitəsinin videokonfrans formatında keçirilmiş iclasında gerçəkləşib.***

AVRO-2020-nin başa çatması, həmçinin müvafiq hüquqi prosedurlar nəzərə alınaraq, baş katibin müavini Sərxan Hacıyevə AFFA-nın baş katibi vəzifəsi həvalə olunub.

O, bu postda Elxan Məmmədovu əvəzləyib.

# ƏƏSMN-da daha 2 qaziyə iş verildi

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sistemində işə qəbul prosesində şəhid ailələrinin üzvlərinə, müharibə veteranlarına üstünlük verilir.***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən "Unikal"a bildirlib ki, bu günlərdə 44 günlük Vətən müharibəsinin daha iki qazisi - Şixizadə Natiq Əbülfət oğlu və Bağırov Ceyhun Taleh oğlu Nazirliyin tabeliyindəki DOST İş Mərkəzinə işə qəbul olunub.

Hər iki qazi ölkəmizin ərazi bütövlüyü uğrunda hərbi əməliyyatlarda şərəfli döyüş yolu keçib. Prezident İlham Əliyevin Sərəncamları ilə N.Şixizadə "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", C.Bağırov isə "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunublar.

N.Şixizadə Mərkəzin İnsan resursları departamentində baş mütəxəssis, C.Bağırov isə mütəxəssis vəzifələrində işə başlayıblar.

Ümumilikdə hazırda DOST İş Mərkəzinin Aparatında 7 nəfər Vətən müharibəsi qazisi, 1 nəfər şəhid ailəsi üzvü çalışır.

# Azərbaycana yatırılan investisiyanın həcmi bu qədərdir

***Azərbaycanın birbaşa investisiyalar formasında xaricdən cəlb olunmuş sərmayələrin ümumi məbləği 4.8 mlrd. dollar olub.***

"Unikal" Azərbaycan Mərkəzi Bankına (AMB) istinadən xəbər verir ki, ölkə iqtisadiyyatına yatırılmış birbaşa investisiyaların strukturunda neft-qaz sektorunun xüsusi çəkisi 83.5% təşkil edib.

2021-ci il üzrə tədiyə balansında birbaşa investisiyalar maddəsinin neft-qaz sektoru üzrə xalis maliyyə öhdəliklərinin (-2 903 mln. dollar) azalması cəlb olunmuş investisiya ilə (4 004.9 mln. dollar) kapitalın repatriasiyası (6 907.9 mln. dollar - əsasən beynəlxalq neft-qaz konsorsiumların payına düşən xam neft və təbii qaz şəklində olan kapital repatriasiyası) arasındakı fərqdən formalaşır. Qiymətləndirmələrə görə qeyri-neft sektoruna cəlb olunmuş birbaşa investisiyaların ümumi məbləği 790.3 mln. dollar (30.5% artım) olub.

Portfel investisiyaları üzrə xalis maliyyə aktivləri 457.5 mln. dollar artıb, xalis maliyyə öhdəlikləri isə 61.5 mln. dollar azalıb, nəticədə portfel investisiyaların axınları üzrə 519 mln. dollar mənfi saldo yaranıb. Hesabat dövründə portfel investisiyaları üzrə aktivlər əsasən neft-qaz (10 mln. dollar), dövlət (170.9 mln. dollar), bank (140 mln. dollar) və özəl (136.6 mln. dollar) sektorların hesabına artıb.

Öhdəliklər isə dövlət (179.4 mln. dollar) sektorunun hesabına azalıb və özəl (117.9 mln. dollar) sektorun hesabına artıb.

# Elmar Məmmədyarovdan sensasiyalı gediş...

## Sabiq nazir yaddaş pozğunluğundan əziyyət çəkir, yoxsa onun hansısa gizli niyyəti var?

***Ötən həftə sabiq xarici işlər naziri Elmar Məmmədyarov mediaya hazırkı fəaliyyəti haqda danışıb.***

"İndi özüm üçün işləyirəm. Əlbəttə ki, 16 il gərgin qrafiklə xarici işlər naziri işləmişəm. Belə vəzifədə olan insan həftədə 7 gün, 24 saat çalışır, çünki məsuliyyətli işdir. İndi isə qrafikim rahatdır. İdmanla məşğul oluram, internet resurslarından xəbərləri, dünyada gedən prosesləri izləyirəm", - Məmmədyarov deyib.

Açığı, Elmar müəllimin bu sözlərində diqqəti çəkən iki məqam var. Bu məqamlardan biri (həm də birincisi!) əslində kifayət qədər nonsensdir. O bildirir ki, xarici işlər naziri olarkən 7 gün, 24 saat çalışırmış, çünki... məsuliyyətli işdir!

Əlbəttə, məsuliyyətli işdir; lakin nonsens orasındadır ki, Məmmədyarov məhz vəzifəsinin məsuliyyətini yetərincə qiymətləndirmədiyi üçün nazir postundan uzaqlaşmışdı. Elmar müəllim unudubsa, xatırladaq:

1.2020-ci il iyulun 15-də baş tutan Nazirlər Kabinetinin iclası zamanı ölkə başçısı Tovuz döyüşləri (həmin il iyulun 12-dən başlayaraq təxminən 10 gün davam etmişdir) zamanı Xarici İşlər Nazirliyinin və nazir Elmar Məmmədyarovun göstərdiyi fəaliyyəti sərt tənqid etdi. Prezident həmin müşavirədə Tovuz döyüşlərinin başlanmasından etibarən Məmmədyarovu iş başında tapa bilmədiyini demişdi: "...biz iş yerindəydik. Baş Nazir iş yerində, mən iş yerində səhərə qədər. Müdafiə naziri, Baş Qərargah rəisi, həmçinin Dövlət Təhlükəsizlik Xidmətinin rəisi, Daxili İşlər naziri, Xarici Kəşfiyyat Xidmətinin rəisi, Təhlükəsizlik Şurasının katibi gecə səhərə qədər iş yerində. Mən Xarici İşlər nazirini tapa bilmədim. Mən Əli Əsədovdan soruşdum, haradadır..."

Bundan sonra Baş nazir Xarici İşlər naziri ilə telefon əlaqəsi yaratdığını söyləyərək onun verdiyi cavabı açıqlamışdı. Sitat: "...dedi ki, mən evdən işləyirəm. ...Dedim ki, belə olmaz. Biz hamımız iş yerindəyik. Prosesləri cənab Prezident idarə edir. Xarici İşlər naziri olaraq sən bunu, bunu, bunu et... Soruşdum ki, evdə niyə işləyirsiniz? Sən gəl iş yerinə, kabinetinə və s".

Bundan sonra indi Məmmədyarov çıxıb hansı iş məsuliyyətindən, həm də hansı haqla danışa bilir?

2. Dövlət rəhbəri eyni müşavirədə həmçinin Məmmədyarovun rəhbərliyi altında son vaxtlarda Xarici İşlər Nazirliyinin əsas iş prinsipinin "dəymə mənə, dəyməyim sənə" prinsipinə əsaslandığını, yəni XİN-in hücum diplomatiyası əsasında işləyə bilmədiyini söyləmişdi.

Bu təsdiqləyir ki, əslində ölkə rəhbərliyi XİN-in o vaxtkı başçısının işindən xeyli vaxtdan bəridir narazı imiş; Tovuz döyüşləri zamanı Məmmədyarovun fəaliyyətsizliyi, hətta həmin günlərdə iş başında tapılmaması isə bu narazılığı daşıran son damla olub. Əks təqdirdə, həmin döyüşlərdən hələ on gün öncə 60 yaşı olan Elmar müəllim bu münasibətilə ən azından hansısa şəkildə təltif edilərdi.

Bir sözlə, budurmu Məmmədyarovun bu gün haqqında fəxrlə danışdığı 16 illik gərgin, məsuliyyətli iş qrafiki?!

3. Hüquq-mühafizə orqanlarının XİN-də keçirilən əməliyyatı ortaya çoxsaylı korrupsiya və vəzifə cinayətlərinə dair faktlar çıxardı. Nazirliyin bir çox yüksəkvəzifəliləri həbs edildi. Bununla yanaşı, mətbuatda nazirin ABŞ-da 4.2 milyon dollara mənzil aldığı faktlarla ortaya qoyuldu və Məmmədyarovun özü də bunu inkar etmədi. Bir sözlə, Elmar müəllimin XİN kimi strateji bir dövlət qurumunu rüşvət və korrupsiya bataqlığına çevirdiyi gözlər önünə sərildi. Məhz bu "bataqlığın" sayəsində də özünə, övladlarına böyük sərvət qazana bilib.

Budurmu Məmmədyarovun "məsuliyyət" anlayışı?!

Əgər yuxarıda sadalananları nəzərə alsaq, iki nəticəyə gəlmək olar: ya sabiq nazir yaddaş pozğunluğundan əziyyət çəkir, ya da bizi "balıq hafizəli" hesab edir, elə fikirləşir ki, cəmiyyət onun XİN başçısı vəzifəsinin öhdəsindən necə "məharətlə, məsuliyyətlə" gəldiyini unudub.



Birinci halda Elmar müəllimə yalnız şəfa diləyə bilərik. İkinci halda isə Məmmədyarovun nəyi hədəflədiyi maraq doğurur. Bizim unutqan olduğumuzu düşünərək özünün hansısa niyyətini həyata keçirmək, məsələn, ictimai rəydə təmizə çıxmaq, hətta ola bilsin ki, karyerasını hər hansı formadasa bərpa eləmək istəyir.

Hər iki halda eks-nazirin açıqlaması normal deyil və acı gülüş doğurur.

O ki, qaldı XİN-in sabiq rəhbərinin açıqlamasındakı ikinci diqqətçəkən məqama, yəni artıq özü üçün işlədiyi barədə dediklərinə, bu barədə bir başqa yazıda danışacağıq. Çünki həmin məqamla bağlı da kifayət qədər ilginc detallar mövcuddur, həmin detallardan xəbərdar olmaq istəyənlər isə qəzetimizin növbəti sayını əldə etməyi unutmasınlar...

***Toğrul Əliyev***

# Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına mane olurlar

## Politoloq: “Əgər sülh müqaviləsi danışıqları başlasa, Qarbagda erməni təxribatları genişlənəcək,bunu da sülhməramlı qüvvələr təhrik edəcək”

***Üçtərəfli Bəyanatdan sonra Ermənistan tərəfi davamlı olaraq razılaşmanı pozaraq üzərinə düşən öhdəlikləri yerinə yetirmir. Bununla yanaşı, tərəflər arasında vasitəçilik edən Rusiyanın əraziyə yerləşdirdiyi sülhməramlı qüvvələr də mandatına uyğun davranmır. Maraqlısı odur ki, son günlər ardarda atəşkəsi pozaraq təxribat törədən qanunsuz erməni silahlıları məhz sülhməramlı kontingentin nəzarət etdiyi ərazidə fəliyyət göstərirlər.***

Rusiya Xarici İşlər Nazirliyi Qarabağda atəşkəsin pozulmasından narhat olduğunu ifadə edib. Belə ki, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinqdə deyib ki, onlar bu regionda və Ermənistan-Azərbaycan sərhədinin müəyyən hissələrində yaranmış vəziyyətdən narahatdırlar. XİN sözçüsü daha sonra bunları qeyd edib: “Martın əvvəlindən müntəzəm olaraq atəşkəsin pozulmasını müşahid edirik. Rusiya sülhməramlı kontingenti öz məsuliyyət zonasında sabitliyi təmin etmək və vəziyyətə nəzarət etmək üçün müvafiq tədbirlər görür və bu səylər sayəsində martın 13-dən indiyədək heç bir silahlı insident qeydə alınmayıb. Sərhədə gəlincə, müvafiq ikitərəfli komissiyanın yaradılması ilə mümkün qədər tez delimitasiya prosesinin başlanmasının tərəfdarıyıq. Qaz kəmərində baş vermiş qəza ilə bağlı ağır humanitar vəziyyətdən xəbərdarıq, bu problemi həll etmək üçün hər iki tərəflə - Ermənistan və Azərbaycanla əlaqə saxlayırıq. Sakinlər və mülki şəxslər üçün problem yaradaraq, onsuz da ağır humanitar vəziyyəti gərginləşdirən addımları istisna etmək lazımdır”.

Zaxarova onu da qeyd edib ki, Rusiya Azərbaycan və Ermənistanın sülh müqaviləsi hazırlamağa hazır olmasını alqışlayır. “Biz Bakı və İrəvanın Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi hazırlamağa hazır olmasını alqışlayırıq və belə bir danışıqlar prosesinə hər cür kömək etmək əzmində olduğumuzu bir daha təsdiqləyirik. Onun tamamlanmasının və sülh müqaviləsinin imzalanmasının ehtimal olunan vaxtına gəlincə, mən hesab edirəm ki, bu mövzu haqqında danışmaq tezdir”, - Zaxarova bildirib. O, həmçinin qeyd edib ki, tərəflər məsələləri öz aralarında həll etməli olacaqlar və Rusiya bu prosesə kömək etməyə hazırdır.

Məsələylə bağlı “Unikal”a açıqlama verən Ədalət Partiyasının sədr müavini, politoloq Mütəllim Rəhimli deyib ki, Qarabağda atəşkəsin tez-tez pozulması bir daha sübut edir ki, Azərbaycan öz suverenliyini tam bərpa edə bilməyib. Onun qənaətincə, bu səbəbdən də işğal zonasında ermənilər özbaşınalıqlarını davam etdirirlər: “Atəşkəsi isə pozmaları onların kimlərə güvəncindən xəbər verir. Başa düşürlər ki, bu cür qanunsuz hərəkətlərinə görə onları cəzalandıran olmayacaq və ya buna imkan verilməyəcək. Üstəlik, bir sıra Qərb ölkələri, xüsusilə də ABŞ-ın Qarabağa ayırdığı humanitar yardımların yalnız orada yaşayan ermənilərə verilməsi də düşündürücü ciddi faktordur. Azərbaycanın rəyi və icazəsi olmadan belə münasibət erməniləri ruhlandırır. Onlar artıq status əldə etməklə bağlı beynəlxalq ictimai fikri formalaşdırmağa çalışırlar”.

Həmsöhbətimiz onu da nəzərə çatdırıb ki, regionda situasiyanın analizi göstərir ki, Qarabağ problemindən Azərbaycana və Ermənistana qarşı təzyiq aləti kimi istifadə edilməkdədir: “Hər iki dövlətin Qarabağ məsələsi ilə bağlı cəzalanmaq kimi bir gözləntiləri var. Ona görə də Azərbaycan işğal altındakı torpaqları ilə bağlı qəti qərar verə bilmir. Halbuki ölkəmiz ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı hərbi əməliyyatlara da başlamaq haqqına sahibdir”.

Politoloq Məhəmməd Əsədullazadə isə fikirlərini “Unikal”la bölüşərkən deyib ki, Rusiya sülhməramlı qüvvələrinin məsuliyyət zonasında qanunsuz erməni silahlı birləşmələri Kremlin siyasi təlimatlari ilə atəşkəsi pozur, təxribatlara əl atır. Onun fikrincə, məqsəd Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin bağlanmasını sabotaj etməkdir: “Hazırda Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqlar başlaya bilər. Rusiya bundan narahatdır. Ümumiyyətlə Kreml Azərbaycan və Ermənistan arasında sülhün əldə olunmasına qarşıdır. Baxmayaraq ki, Zaxarova “dəstəkləyirik” deyir. Əgər, sülh müqaviləsi danışıqları başlasa, Qarbagda erməni təxribatları genişlənəcək. Bunu da Rusiya sülhməramlı qüvvələri təhrik edəcək”.



Müsahibimiz digər bir məqama da toxunub. O bildirib ki, Ermənistanın ”Zəngəzur” dəhlizinin açılmasını siyasi alver predmetinə çevirdiyindən rəsmi Bakı alternativ varianta üstünlük verdi: “Yerevan Zəngəzur dəhlizinin açılmasını Qarabağda etnik ermənilər üçün ”status” məsələsi ilə paralel olaraq danışıqlar predmetinə çevirməyə çalışırdı. Bu, 10 noyabr birgə Bəyanməsinin Yerevan tərəfindən pozulması deməkdir. Bununla, Azərbaycana təzyiq etmək niyyətindədirlər. Azərbaycanın İranla Anlaşma memorandumu imzalaması Ermənistanın Azərbaycana qarşı əlində təzyiq vasitəsini heçə endirdi. Ermənistan hazırkı siyasi dalandan çıxmaq və ”nəyəsə” nail olmaq üçün Azərbaycanın sülh təklifinə Minsk qrupunun vasitəçiliyi ilə aparılmasını şərt kimi irəli sürüb. Bu format çərçivəsində N. Paşinyan ”status” məsələsini növbəti dəfə gündəmə daşımağa cəhd edir. Ermənistan rəhbərliyi növbəti dəfə destiruktiv siyasət həyata keçirməklə, Qərbin vasitəsilə Azərbaycana təzyiq etmək üçün diplomatik müstəvidə iş aparır. Amma, Yerevanın ”diplomatik” həmlələri müsbət nəticə verməyəcək. İlk növbədə rəsmi Bakı Avropa ölkələri ilə siyasi -iqtisadi və enerji təhlükəsizliyi sahəsində əməkdaşlığı inkişaf etdirir. Tərəflər arasında narazılıq yaradacaq proses yoxdur. Avropa müharibənin gedişində Azərbaycana təzyiq etməyibsə, hazırda təhlükəsizliyi Rusiya tərəfindən təhdid edildiyi bir dönəmdə Ermənistanın siyasətinə alət olub Bakıya təzyiq etməyəcək. N. Paşinyanın Fransaya səfərində bu amil başlıca yer tuturdu. Bulanıq suda balıq tutmaq cəhdləri erməni rəhbərliyi tərəfindən hələ də davam etdirilir”.

***Z. Məmmədli***



# Milli Məclisdə boş qalan deputat yerlərinin sayı 7-yə çatdı

***Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyevin 3 mart tarixində imzaladığı sərəncamla Şahin Seyidzadə “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin edilib.***

”Unikal”ın məlumatına görə, konstitusiyanın 89-cu maddəsinə əsasən, Milli Məclisin deputatı digər işdən maaş alırsa, onun mandatına xitam verilir. Bu baxımdan, MSK-nın bu gün keçirilən iclasında Şahin Seyidzadənin deputat səlahiyyətlərinə xitam verilib.

Bu qərar qəbul edildiyi gündən qüvvəyə minir. Bununla, parlamentdə boş qalan deputat yerlərinin sayı 7-yə çatıb.

Qeyd edək ki, ötən ilin fevralında baş tutmuş parlamentin növbədənkənar seçkilərindən sonra 4 dairə üzrə yerlər boş qalıb. Mərkəzi Seçki Komissiyası seçkilər nəticəsində baş vermiş qanun pozuntularına görə 4 dairənin nəticələrini ləğv edib. Nəticəsi ləğv edilmiş dairələr 33 saylı Xətai birinci seçki dairəsi - (lider namizəd Hüseynbala Mirələmov), 35 saylı Xətai üçüncü seçki dairəsi ( lider namizəd Rauf Arifoğlu), 74 saylı Lənkəran kənd seçki dairəsi (lider namizəd Hadı Rəcəbli) və 80 saylı İmişli-Beyləqan seçki dairəsidir (lider namizəd Çingiz Qənizadə).

Həmçinin Milli Məclisin mərhum deputatı, Fəttah Heydərov ötən ilin avqustunda dünyasını dəyişib və bundan sonra 116 saylı Qəbələ seçki dairəsi də boş qalıb.

Bundan başqa, Sumqayıt Ağır Cinayətlər Məhkəməsində polisi döyən deputat Eldəniz Səlimova 3 il 6 ay müddəttinə hökm oxunub. Bununla da onun deputat səlahiyyətlərinə xitam verilib.

***Anar Kəlbiyev***

# Lukaşenko Zelenskini hədələdi

***“Rusiya Prezidenti Vladimir Putin Ukrayna Prezidenti Vlodomir Zelenskiyə tamamilə məqbul razılaşma variantı təklif edir”.***



Bunu Belarus Prezidenti Aleksandr Lukaşenko Yaponiyanın TBS telekanalına müsahibəsində söyləyib.

“Əgər Zelenski Putinlə razılaşma bağlamasa, o zaman o, kapitulyasiya aktına imza atmalı olacaq”, - dövlət başçısı bildirib.

Belarus lideri Ukraynanın ölkəsinə qarşı eskalasiyanı davam etdirəcəyi təqdirdə cavab tədbirləri görəcəyini vurğulayıb: “Nəyi nəzərdə tuturam: fevralın 23-24-də onlar Belarus ərazisinə zərbə vurmağı planlaşdırırdılar. Bu barədə danışmışam. 4 istiqamətdən. Biz bunu qabaqladıq. Onlar bizim dövlət sərhədimizi uçuş aparatları, helikopter və s. vasitələrlə pozurlar”.

# Azərbaycanla Türkiyə arasında memorandum təsdiqləndi



***Azərbaycan Energetika Nazirliyi ilə Türkiyə Energetika və Təbii Sərvətlər Nazirliyi arasında təbii qazın tədarükünə dair Anlaşma Memorandumu təsdiq edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı fərman imzalayıb.

Fərmana əsasən, Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etməlidir.

Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərəcək.

# MSK Şahin Seyidzadənin mandatına xitam verdi



***Mərkəzi Seçki Komissiyasının iclası başlayıb. "Unikal" xəbər verir ki, iclasda Şahin Seyidzadənin deputat səlahiyyətlərinə xitam verilməsi müzakirəyə çıxarılıb.***

Mərkəzi Seçki Komissiyasının qərarına əsasən Ş.Seyidzadənin deputat səlahiyyətlərinə xitam verilib.

İclasda həmçinin, MSK-nın 3 sentyabr 2021-ci il iclas protokolunun təsdiq edilməsi, Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası qanunda nəzərdə tutulmuş sənəd nümunəsinin təsdiq edilməsi, MSK-nın normativ xarakterli aktına dair, bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi məsələlərinə baxılacaq.

Qeyd edək ki, Prezident İlham Əliyevin 3 mart tarixində imzaladığı sərəncamla Ş. Seyidzadə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin edilib. Ş. Seyidzadə deputat mandatından imtina etməsi ilə bağlı MSK-ya müraciət edib.

# Ukraynadan beynəlxalq ictimaiyyətə müraciət: "Bizə kömək edin"



***Ukrayna Xarici İşlər Nazirliyi beynəlxalq ictimaiyyətə müraciət edib.***

Bu barədə nazirliyin tviter səhifəsində paylaşım edilib. "Biz Rusiyanı dayandırmaq üçün canımız bahasına mübarizə aparırıq. Qələbə qazanana qədər mübarizə aparacağıq. Beynəlxalq ictimaiyyəti isə Ukraynanın hava səmasını bağlamağa, Rusiyaya qarşı sanksiyaları gücləndirməyə çağırırıq. Dünyanın taleyi Ukraynada həll olunur. Özümüzü və sizi qorumaq üçün bizə kömək edin", - XİN-in müraciətində vurğulanıb.

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# "Bu, düzgün və vaxtında verilmiş qərar idi" - Putin

***Krımın Rusiyaya yenidən birləşdirilməsi düzgün və vaxtında verilmiş qərar idi.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya prezidenti Vladimir Putin bildirib.

"Krımın və Rusiya Federasiyasına birləşdirilməsi düzgün və vaxtında verilmiş qərar idi. İndi Donbasda baş verənlərə baxmaq kifayətdir", - deyə Rusiya prezidenti vurğulayıb.

*Ağarza Elçinoğlu*

# Ceyhun Bayramov Ermənistanın törətdiyi ekoloji terrorla bağlı məlumat verdi

***Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Ətraf Mühit Proqramının (UNEP) Avropa üzrə Regional Nümayəndəliyinin direktoru Bruno Pozzi ilə görüşüb.***



Bu barədə "Unikal"a Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib. Görüşdə işçi qrupda təmsil olunan müvafiq dövlət qurumlarının nümayəndələri və Azərbaycanda səfərdə olan BMT-nin Ətraf Mühit Proqramının ekspert qrupunun üzvləri iştirak ediblər.

Görüş zamanı tərəflər, Azərbaycanla BMT arasında əməkdaşlıq, həmçinin UNEP ilə Azərbaycan arasında gündəlikdə duran digər praktiki məsələlər ətrafında fikir mübadiləsi aparıb.

Görüşdə, habelə azad olunmuş ərazilərdə həyata keçirilən yenidənqurma və bərpa işləri, minaların təmizlənməsi prosesi, o cümlədən ətraf mühit sahəsində ikitərəfli münasibətlərin dərinləşdirilməsi imkanları və Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı məsələlər müzakirə mövzusu olub.

Ölkəmizin BMT və onun ixtisaslaşmış qurumları ilə əməkdaşlığa əhəmiyyət verdiyini söyləyən nazir Ceyhun Bayramov, ölkəmiz tərəfindən BMT-nin Ətraf Mühit Proqramının işğaldan azad olunmuş ərazilərdə biomüxtəliflik və ekosistemlərin bərpasına dəstəyinin yüksək qiymətləndirildiyini bildirib.

Görüş zamanı qarşı tərəf regiondakı hazırki vəziyyət, işğaldan azad edilmiş ərazilərdə Azərbaycan dövləti tərəfindən aparılan böyük həcmli bərpa və yenidənqurma işləri barədə məlumatlandırılıb. Nazir Ceyhun Bayramov, Azərbaycanda ətraf mühitin mühafizəsi sahəsində həyata keçirilən dövlət proqramları, qarşıda duran vəzifələr və mövcud ekoloji problemlərin həlli yolları barədə qarşı tərəfə məlumat verib.

Ermənistanın Azərbaycan ərazilərinə hərbi təcavüzü və 30 ilə yaxın davam etmiş işğal nəticəsində 1 milyondan çox soydaşımızın yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyü, azad edilmiş ərazilərdə meşə ehtiyatlarının, flora və faunanın, xüsusi mühafizə olunan təbiət ərazilərinin, su ehtiyatlarının, faydalı qazıntı yataqlarının, torpaqların vəziyyətinin işğala qədərki dövrlə müqayisəli qiymətləndirilməsi, kənd təsərrüfatı sahəsində görülmüş işlər, o cümlədən deqradasiya olunmuş torpaqlar, hərbi eroziya, "Ağıllı kənd" layihəsi, "Yaşıl enerji zonası konsepsiyası", peyk təsvirləri əsasında işğaldan azad edilmiş ərazilərin monitorinqi və görüləcək bərpa işləri beynəlxalq ekspertin diqqətinə çatdırılıb. Nazir Ceyhun Bayramov, bu xüsusda Azərbaycanda bu istiqamətdə aparılan fəaliyyətdə UNEP-in iştirakının yüksək qiymətləndirildiyini qeyd edib.

Azərbaycanın ətraf mühit məsələlərinə böyük önəm verdiyini deyən nazir, azad olunmuş ərazilərin yaşıl enerji zonası elan edildiyini vurğulayıb və burada bütün layihələrin ətraf mühit məsələlərinə xüsusi diqqət yetirilməklə icra olunduğunu diqqətə çatdırıb.

Öz növbəsində BMT-nin Ətraf Mühit Proqramının Avropa üzrə Regional Nümayəndəliyinin direktoru Bruno Pozzi səmimi qəbula görə təşəkkürünü bildirib. O, ölkəmizin BMT ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən layihələrin təqdirəlayiq olduğunu qeyd edib və işğaldan azad olunmuş ərazilərə səfər çərçivəsində qiymətləndirmə missiyasına Ermənistan tərəfindən törədilmiş ekoloji zərərin əyani şəkildə göstərildiyini ifadə edib.

Bruno Pozzi, ekspert qrupunun ölkəmizə səfərinin məqsədinin işğaldan azad edilmiş ərazilərin ekoloji bərpası prosesinə dəstək göstərilməsi üçün qiymətləndirmə missiyasının həyata keçirilməsi, Azərbaycan Hökumətinin azad olunmuş ərazilərdə ekosistemlərin bərpası ilə bağlı planlarının öyrənilməsi, UNEP-in dəstək istiqamətlərinin müəyyən edilməsi və ekoloji bərpa ehtiyacları ilə bağlı birbaşa mənbələrdən məlumatların toplanması olduğunu bildirib və bu xüsusda, konstruktiv dialoq və səmərəli əməkdaşlığa görə minnətdarlığını ifadə edib.

Görüş zamanı digər qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb, gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub.

# Dollar bu tarixdən bahalaşacaq: FED faizi artırır

***ABŞ-ın Federal Ehtiyatlar Sistemi 3 ildən sonra ilk dəfə faiz dərəcələrini 0,25 faiz artıracaq.***

Bu barədə ABŞ mənbələri məlumat yayıb. Bildirilir ki, Mərkəzi Bankın iclası bu gün yerli vaxtla saat 16:00-da baş tutacaq. Ekspertlər hesab edir ki, faiz dərəcəsinin artırılması dünya birjalarına təsir edəcək və dolların dünya miqyasında yerli valyutalar qarşısında bahalaşması gözlənilir. Qeyd edək ki, FES rəhbəri Cerum Pauell hələ bir müddət əvvəlki açıqlamasında mart ayından başlayaraq faiz dərəcəsini mərhələli şəkildə artırılacağını bəyan etmişdi. O bildirmişdi ki, ölkədə inflyasiya dərəcəsi düşməsə daha aqressiv qərarlar qəbul ediləcək. ABŞ-da inflyasiya dərəcəsi son 40 ilin ən yüksək həddinə - 7,9 faizə çatıb.



# Hərbçilərimiz Novruz bayramını Şuşada qeyd edib

***Azərbaycan Televiziyası ( AZTV ) Novruz bayramı ilə əlaqədar videoçarx hazırlayıb.***

"Unikal" xəbər verir ki, TV-nin Sosial media və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, videoçarxda Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının Şuşada xidmət edən hərbçiləri baş rolda göstərilib.

DİN-in dəstəyi ilə çəkilən çarxda görünür ki, hərbçilər Şuşa qalasının Gəncə qapısı qarşısında Azərbaycanın xalq mahnısı "Sarı gəlin"in fon musiqisi ilə tonqal qalayır. Sonda isə hərbçilər əllərində Azərbaycan bayrağı tutaraq Şuşanı, Vətəni qoruduqlarını nümayiş etdirirlər.



# Prezident Avropa çempionatının iştirakçılarını qəbul etdi

## İlham Əliyev: “Azad edilmiş torpaqlarda idman inkişaf etməlidir”

***Martın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 23 yaşadək idmançıların Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul edib.***

“Unikal” xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış etdi.

- Bu yaxınlarda Bolqarıstanda keçirilmiş Avropa çempionatında gənc güləşçilərimiz ölkəmizi ləyaqətlə təmsil edərək böyük uğura imza atdılar, 16 medal qazanıldı, onlardan 7-si qızıl medaldır. Bu, çox böyük nailiyyətdir. Xüsusilə nəzərə almalıyıq ki, komanda hesabında bizim komandamız birinci yerə layiq görülmüşdür. Bu münasibətlə ilk növbədə idmançıları və onların məşqçilərini, Güləş Federasiyasını təbrik edirəm. Bu, bir daha onu göstərir ki, Azərbaycanda idman uğurla inkişaf edir, Azərbaycan idman dövlətidir və həm böyüklər, həm gənclər arasında keçirilmiş beynəlxalq yarışlarda bizim idmançılarımız öz gücünü, dövlətimizin qüdrətini nümayiş etdirirlər.

Mən bilirəm ki, idmanın bütün növlərində, o cümlədən güləş idman növündə ildən-ilə rəqabət artır, müxtəlif ölkələrdə güclü idmançılar üzə çıxır və artan rəqabət şəraitində Avropada birinci olmaq, əlbəttə, böyük nailiyyətdir. Dövlət Himnimiz yeddi dəfə səslləndirildi. Əlbəttə ki, həm idmançılar, həm idman mütəxəssisləri, bütün Azərbaycan vətəndaşları bu qələbəni böyük qürur hissi ilə qarşılayıblar.

Güləş Azərbaycanda idmanın bütün növləri arasında xüsusi yerə malikdir. Güləş bizim milli idman növümüzdür. Bütün dövrlərdə güclü güləşçilərimiz olubdur, həm sovet dövründə və xüsusilə müstəqillik dövründə. Bizim güləşçilərimiz Azərbaycanı müxtəlif yarışlarda ləyaqətlə təmsil ediblər. Bizim bir çox Olimpiya, dünya, Avropa çempionlarımız var. Əlbəttə, güləşin ənənələri Azərbaycanda kifayət qədər güclüdür və şadam ki, indi gənc nəsil bu ənənələri davam etdirir. Əminəm ki, bu yaxınlarda medallar qazanmış idmançılar arasında gələcəyin Avropa, dünya və Olimpiya çempionları olacaqlar. Nəsildən-nəslə keçən bu təcrübə, bilik, səriştə əminəm ki, Azərbaycanı bundan sonra da dünya miqyasında aparıcı güləş ölkələrindən birinə çevirəcəkdir. Hər halda Avropada gənclər arasında biz birinciyik və mənə verilən məlumata görə, çempionatda 34 ölkə iştirak edirdi. Bunu nəzərə alaraq, bir daha qeyd etmək istəyirəm ki, bu, doğrudan da böyük nailiyyətdir. Əlbəttə, bütün bu amilləri nəzərə alaraq, bu gün mən sizi dəvət etmişəm ki, şəxsən özüm sizi təbrik edim və ümidvar olduğumu bildirim ki, gələcəkdə də siz eyni əzmkarlıqla ölkəmizi ləyaqətlə təmsil edəcəksiniz.

Son vaxtlar Güləş Federasiyasında gedən proseslər narahatlıq doğururdu və durğunluq hiss olunurdu. Güləş Federasiyasında idarəetmə mexanizmi zəifləmişdi, faktiki olaraq özbaşınalıq hökm sürürdü. Əlbəttə ki, bu, nəticələrə də mənfi təsir göstərmişdir və bu, təbiidir. Ona görə Güləş Federasiyasının rəhbərliyinin dəyişdirilməsi zəruri idi, bu, baş verdi. Əminəm ki, federasiya indi həm buraxılmış bütün nöqsanları aradan qaldıracaq, vəziyyəti təhlil edəcək, - mənə məlumat verilib ki, artıq bu işlərə start verilib, - əlbəttə ki, idmançılara - həm gənclər, həm də böyüklər arasında çıxış edən idmançılara lazımi şərait yaradacaqdır. Mən Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsinə seçiləndən qarşıya məhz bu vəzifəni qoydum ki, biz idmançılara şərait yaratmalıyıq, onlardan isə nəticə gözləməliyik. Bax, bu iki əsas amil bizim böyük uğurlarımızın əsasını təşkil edirdi. Ona görə əminəm ki, Güləş Federasiyası Gənclər və İdman Nazirliyi ilə, məşqçilərlə birlikdə düzgün addımların atılmasına nail olacaq və bugünkü qələbəni mən görülən bu işlərin ilk təzahürlərindən biri kimi qəbul edirəm.

Bizim idmançılar uzun illərdir Azərbaycanı dünyada təbliğ edirlər. Mən dəfələrlə idman ictimaiyyəti ilə görüşlər əsnasında deyirdim ki, idman bizim dövlət siyasətimizdir və idman hər bir ölkənin qüdrətini əks etdirir. Çünki əgər beynəlxalq yarışlarda, Olimpiya Oyunlarında ölkələrin reytinqlərinə nəzər salsaq görərik ki, adətən inkişaf etmiş ölkələrin nümayəndələri daha da böyük uğurlar qazanırlar. Bu da təbiidir, çünki həm təlim-məşq toplanışlarının keçirilməsi, ümumiyyətlə, hazırlıq işlərinin qurulması, iqtisadi baza - bütün bu amillər önəmli rol oynayır. Əlbəttə ki, dövlət siyasəti burada aparıcı məsələdir və Azərbaycan bu ölkələrin sırasındadır. Biz nəinki iqtisadi və digər sahələrdə, idman sahəsində də qabaqcıl ölkələrin sırasındayıq və bu liderliyi qorumalıyıq. Təsadüfi deyil ki, beynəlxalq idman qurumları Azərbaycana çox böyük rəğbətlə yanaşırlar. Belə olmasaydı, Azərbaycanda iki dünya səviyyəli tədbir keçirilməzdi - həm Avropa Oyunları, həm də İslam Həmrəyliyi Oyunları. Bir ölkədə, bir şəhərdə cəmi iki il ərzində iki böyük tədbirin keçirilməsi beynəlxalq idman ictimaiyyətinin, federasiyalarının bizə olan münasibətinin əlamətidir. Biz bu yarışları yüksək səviyyədə keçirdik və idmançılarımız bizi sevindirdilər. Bizim beynəlxalq idman qurumları ilə, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya komitələri ilə sıx əlaqələrimiz var, beynəlxalq federasiyalarla sıx əlaqələrimiz var. Bu əlaqələr əlbəttə ki, Azərbaycanda idman siyasətinin düzgün aparılmasında da bizə kömək göstərir. Ölkəmizdə keçirilmiş və bundan sonra keçiriləcək idman yarışları da müntəzəm xarakter almalıdır. Çünki ölkəmizin həm imkanları, həm Azərbaycanda qonaqpərvərlik, idman infrastrukturunun mövcudluğu sayəsində biz bütün istənilən idman yarışını keçirə bilərik. Məsələn, Avropa Oyunlarında 5 mindən çox idmançı iştirak edirdi və onların bir çoxu qeyd edirdi ki, bu Oyunlar Yay Olimpiya Oyunlarının səviyyəsində keçirilir. Yəni, bütün bu şəraiti biz yaratmışıq ki, həm idmançılar dövlətimizin şöhrətini həmişə yüksəkliklərdə saxlasınlar, həm də idman kütləvi xarakter alsın. Gənclər və idman naziri qarşısında, yeni rəhbərlik qarşısında qoyduğum vəzifələrdən biri də məhz budur - idmanın kütləviliyini təmin etmək və bütün bölgələrdə mövcud infrastrukturdan istifadə etmək. Çünki bizdə hər bir bölgədə müasir olimpiya idman kompleksləri vardır, 50-yə yaxın belə bir kompleks artıq inşa edilib və onlardan səmərəli şəkildə istifadə etməliyik. Seleksiya işi çox düzgün aparılmalıdır. Bölgələrdə bir çox yerlərdə istedadlı uşaqlar var, sadəcə olaraq onları düzgün seçmək və idmana, idman bölmələrinə cəlb etmək lazımdır.

Əlbəttə ki, tanınmış idmançılarımızın nümunəsi, Olimpiya, dünya, Avropa çempionlarının nümunəsi gənclər üçün də bir stimul olmalıdır. Onlar da bizim tanınmış idmançılar kimi olmağa çalışmalıdırlar. Bilirəm ki, bizim tanınmış, görkəmli idmançılarımız da həm öz idman uğurları ilə, həm də ki, davranışları ilə də nümunə göstərirlər. Mən çox şadam ki, Azərbaycan idman ictimaiyyəti və bizim idmançılarımız, onların böyük əksəriyyəti həyatda da nümunədirlər və belə də olmalıdır. Bir sözlə, mən güləş idman növünün perspektivlərini çox müsbət qiymətləndirirəm. Əminəm ki, növbəti illərdə həm Olimpiya Oyunlarında, həm də dünya çempionatlarında bizim uğurlarımız kifayət qədər olacaq.

Bir məsələyə də toxunmaq istərdim. Bu gün siz qalib gəlmiş ölkəni təmsil edirsiniz. Biz müstəqil ölkə kimi böyük idman yarışlarına qatılanda torpaqları işğal edilmiş ölkə kimi çıxış edirdik. Sübut etməli idik və sübut edirdik ki, bizim gücümüz də var, iradəmiz də var və beynəlxalq idman arenalarında göstərdiyimiz məharət, güc özünü döyüş meydanında da göstərəcək. Hər halda, xalqımızın və gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsində idman amili çox böyük rol oynayır. Mən bunu bilərək çalışırdım ki, gənclərdə vətənpərvərlik hissləri daim yüksək olsun. Məhz bu vətənpərvərlik hissləri, Vətənə olan sevgi, bağlılıq Vətən müharibəsində əsas rol oynadı. Bizim əlbəttə ki, güclü Ordumuz, texnikamız, silahlarımız, sursatlarımız var. Amma Qələbəmizi şərtləndirən döyüşçülərin əzmkarlığı, Vətənə olan bağlılığı idi. Bu da vətənpərvərlikdən irəli gəlir.

Biz uzun illər - 30 ilə yaxın beynəlxalq arenalarda, istər idman, istər siyasi arenalarında məğlub edilmiş ölkə kimi təmsil olunurduq. Bunu etiraf etmək nə qədər ağırdırsa, o qədər də sadədir. Yəni, biz həqiqəti olduğu kimi bilməliyik və deməliyik. Bəli, bu məğlubiyyətin səbəbləri var idi, ovaxtkı antimilli hakimiyyətin xəyanətkarlığı, ordunun olmaması, Ermənistana xarici dövlətlərin göstərdikləri yardımlar - bütün bunlar var idi. Məhz bu amillər məğlubiyyəti şərtləndirmişdir. Amma həqiqət o idi ki, torpaqlarımız işğal altında idi və biz sübut etməli idik ki, nəyin bahasına olursa-olsun torpaqlarımızı işğalçılardan azad edəcəyik və etdik. Bir daha demək istəyirəm, hesab edirəm ki, o cümlədən idman sahəsində əldə edilmiş uğurlar, bayrağımızın qaldırılması, himnimizin səsləndirilməsi vətənpərvərlik hisslərini daha da gücləndirirdi və hər birimizə bir daha göstərirdi ki, əgər biz idman yarışlarında düşməni təmsil edən idmançıları məğlub edə biliriksə, döyüş meydanında da mütləq qələbə qazanacağıq. Belə də oldu.

Siz gənclər artıq başqa Azərbaycanı təmsil edirsiniz. Siz qalib gəlmiş müzəffər xalqı təmsil edirsiniz. Əminəm ki, o arenaya çıxanda sizin ürəyinizdə mütləq bu duyğular olmalıdır. Təkcə Azərbaycan vətəndaşları yox, bütün dünya azərbaycanlıları bu gün özlərini əmin hiss edirlər, yaşadıqları ölkələrdə Azərbaycan həqiqətlərini çatdıraraq, o cümlədən İkinci Qarabağ müharibəsi haqqında qürur hissi ilə danışırlar. Siz də beynəlxalq yarışlarda əlbəttə ki, müxtəlif ölkələrdə olursunuz. Əminəm, bəlkə də siz gənclər yox, - çünki siz təzə-təzə beynəlxalq yarışlarda iştirak etməyə başlamısınız, - amma böyüklər, məşqçilər, idman mütəxəssisləri mütləq görür ki, Azərbaycana münasibət nə dərəcədə dəyişmişdir. Çünki biz qalib ölkəni, müzəffər xalqı təmsil edirik. Biz müharibəni ləyaqətlə aparmışıq, bütün müharibə qanunlarına riayət edərək aparmışıq. Biz mülki əhaliyə qarşı vuruşmamışıq, biz binaları bombalamamışıq, biz qəddarlıqla məşğul olmamışıq. Halbuki, xalqımızın ürəyində qisas hissi həmişə var idi. Çünki ermənilər tərəfindən bizə qarşı soyqırımı törədilmişdir, bizə qarşı etnik təmizləmə siyasəti aparılmışdır və qisas hissi mütləq olmalı idi. Ancaq mən demişdim ki, düşməndən intiqamı döyüş meydanında alacağıq. Bütün dünya, bütün hərbi ekspertlər artıq bunu dəfələrlə qeyd edirlər ki, Azərbaycan bu müharibəni həm böyük məharətlə, ustalıqla aparıb, qısa müddət ərzində istədiyinə nail olub, həm də bütün müharibə qanunlarına riayət edərək ləyaqətlə aparıb. Məhz buna görə düşmən tərəfində mülki əhali arasında itkilər 30-dan da az idi. O da məhz ona görə ki, o mülki vətəndaşlar döyüşlərdə iştirak edirdilər.



Mən bunu xüsusilə qeyd etmək istəyirəm. Çünki indi dünyada bir çox yerlərdə müharibələr gedib, gedir və əfsuslar olsun ki, gedəcək. Bu gedən müharibələrə diqqət yetirsək hesab edirəm ki, həm Azərbaycan xalqı, həm bütün dünya ictimaiyyəti bir daha Azərbaycan xalqının böyüklüyünü və Azərbaycan rəhbərliyinin məsuliyyətini görür. Əlbəttə ki, idmançılarımız üçün bu, əlavə bir stimuldur. Çünki biz ləyaqətli xalqı və böyük hörmətə layiq olan ölkəni təmsil edirik. Siz idmançılar bundan sonra, sizdən sonra gələn nəsillər həmişə müzəffər ölkəni təmsil edəcəksiniz. Çünki bizim Qələbəmiz əbədidir, biz Qarabağı düşməndən azad edən xalqıq və o torpaqlarda həyat yaradan, həyat quran xalqıq.

Əlbəttə ki, azad edilmiş torpaqlarda idman inkişaf etməlidir. Biz indidən bu işlərlə məşğul oluruq. Stadionlar, idman kompleksləri və digər idman qurğuları şəhərlərin, azad edilmiş bütün şəhərlərin baş planlarında da öz əksini tapır. İndidən federasiyalar, Gənclər və İdman Nazirliyi artıq layihələri təqdim etməlidir. Çünki şəhərlərin baş planlarında idman qurğularının yerləşməsi nəzərdə tutulur. Amma bunlar hansı formada olacaq, memarlığı necə olacaq, bunu artıq müvafiq federasiyalar, Gənclər və İdman Nazirliyi təqdim etməlidir.

Bir sözlə, əziz dostlar, uşaqlar, məşqçilər, mütəxəssislər, sizi bir daha təbrik edirəm, sizə yeni uğurlar, yeni qələbələr arzulayıram.

***İnformasiya şöbəsi***



## Nazir Azərbaycanın qeyri-neft ixracının həcmini açıqladı

***Bu ilin yanvar-fevral aylarında Azərbaycandan qeyri-neft məhsullarının ixracı 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 39,3 % artaraq 461,5 milyon ABŞ dolları təşkil edib.***

"Unikal" xəbər verir ki, bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov "Twitter" hesabında yazıb.

"Bu, qeyri-neft sektorunda ixrac potensialının və milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artmasının müsbət nəticəsidir", - o qeyd edib.

## "Azərsu" ASC-nin sədr müavini vətəndaşları qəbul etdi

***Mərkəzi icra hakimiyyəti orqanları, digər idarəetmə qurumların rəhbərlərinin 2022-ci ilin mart ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Köçərli Həsənov 16 mart 2022-ci il tarixində Saatlı şəhərində Saatlı, Sabirabad və İmişli rayonlarından olan vətəndaşları qəbul edib.***



"Unikal" xəbər verir ki, qəbuldan əvvəl "Azərsu" ASC-nin sədr müavini Köçərli Həsənov və Şaatlı Rayon İcra Hakimiyyətinin başçısı Elmir Bağırov ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə gül dəstəsi düzərək Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Saatlı şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Saatlı, Sabirabad və İmişli rayonlarından olan 38 nəfər iştirak edib. Vətəndaşların müraciətləri içməli su təchizatı və kanalizasiya xidmətləri, işə qəbul və digər məsələlərlə bağlı olub.

Hər bir vətəndaşı dinləyən "Azərsu" ASC-nin sədr müavini K.Həsənov müraciətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırmaya ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını dilə gətirərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# "Azərbaycan lokal hərbi əməliyyatlar həyata keçirə bilər"

### Akif Nağı: "Ermənilər öz öhdəliklərinə əməl etməlidirlər ki, Azərbaycanın hərbi və polis qüvvələri oraya daxil olsun və eyni zamanda, dinc əhali geri qaytarılsın"

***Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı "Unikal" qəzetinə müsahibə verib. O, son günlər Qarabağ ərazisində yerləşən qanunsuz erməni silahlı birləşmələrinin təxribatları, rus sülhməramlı qüvvələrinin fəaliyyətsizliyi və digər məsələlərlə bağlı fikirlərini bölüşüb.***

***- Akif bəy, son günlər Qarabağdakı qanunsuz erməni silahlıları yenidən aktivləşiblər. Sizcə nə baş verir:***

- Dünyada proseslərin gərginləşməsi fonunda ermənilər də nə isə etməyə çalışırlar. Tarix boyu onlar belə vəziyyətlərdən istifadə etməyə çalışıblar. 1905-1906-cı illərdə Rusiya inqilabı dövründə və 1918-1920-ci illərdə də ara qarışmışdı. Ermənilər həmin dövrlərdə də Azərbaycana qarşı təxribat törətdilər. İndi, yenə də dünyada münasibətlər gərgindir. Ona görə də, ermənilər nə isə əldə etməyə çalışırlar, amma bunu bacarmırlar. Buna səbəb isə onlara dəstək verən xarici qüvvələrin olmamasıdır. Yəni, Rusiya da Ermənistana dəstək vermir. Bəzi mətbu orqanlar insanlarda o rəyi yaratmağa çalışırlar ki, guya Rusiya Ermənistanın arxasında dayanır və buna görə də onlar nə isə etmək istəyirlər. Məsələyə ciddi yanaşsaq görərik ki, Rusiyanın Ermənistana dəstəyi hiss olunmur.

Qərb də əsasən Ukraynadakı problemləri həll etməyə çalışır. Ermənistanın özündə də ikili yanaşma var.Digər tərəfdən Qarabağ ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri atəşkəsi pozur, təxribatlar törədir.

***-Məsələ odur ki, Ermənistanın rəhbərliyi son dövrlər kifayət qədər yumşaq mövqe tutur, sülh sazişi imzalamağa hazır olduqlarını bəyan edirlər...***

- Bilirsiniz, Azərbaycan Ermənistana 5 bənddən ibarət olan sülh müqaviləsi təklif edib. Ermənistan rəhbərliyi isə prinsipcə həmin şərtləri qəbul edir. Həmin şərtlər təqdim olunmazdan öncə də Azərbaycan sərhədlərin toxunulmazlığı ilə bağlı öz mövqeyini bildirmişdi. Paşinyan da öz açıqlamasında bildirmişdi ki, 1991-ci ilin dekabr ayında Müstəqil Dövlətlər Birliyi (MDB) yaranarkən saziş imzalanmışdı və sazişə əsasən MDB-yə daxil olan dövlətlərin bir-birilərinin ərazi bütövlüyünü tanıdığı, həmçinin birliyə daxil olan ölkələrə qarşı ərazi iddialarının olmayacağı qeyd edilirdi. Görünür ki, Ermənistan cəmiyyətində həmin sazişə əsasən rəy formalaşdırmağa çalışırlar. Bu günlərdə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan da bildirdi ki, bu məsələ ilə bağlı mübahisə yoxdur. Yenə də, bir əl yeri qoymağa çalışırlar. Mirzoyan son açıqlamasında danışıqların Minsk qrupu tərəfindən aparılmasını bildirdi. Eyni zamanda, onlar artıq "Dağlıq Qarabağ"ın müstəqilliyindən danışmırlar. Yalnız Azərbaycanın ərazisində status istəyirlər. Buna da Azərbaycan rəhbərliyi doğru olaraq öz sərt mövqeyini bildirdi ki, bu oyunlara son qoyulmalıdır. Azərbaycan ərazisində hansısa bir qrupa status verilməsindən söhbət gedə bilməz. İstənilən halda, ermənilərin dedikləri ilə etdikləri üst-üstə düşmür. "Dağlıq Qarabağ"da gedən proseslər yenə də Ermənistandan idarə olunur. Ona görə də, Qarabağda törədilən təxribatlara görə Ermənistan rəhbərliyi məsuliyyət daşıyır və onlar tərəfindən törədilmiş sayılır. Azərbaycan isə bu təxribatlara son qoyulmalı olduğunu ifadə edir. Bunun yeganə yolu isə ondan ibarətdir ki, həmin ərazidə olan qanunsuz erməni silahlı dəstələri ləğv olunmalıdır.

***- Törədilən təxribatlara görə Rusiya sülhməramlıları məsuliyyət daşıyırmı? Axı, atəşkəs onların nəzarət etdiyi ərazilərdə pozulur?***

- Bunun iki cavabı ola bilər. Birinci variant ondan ibarətdir ki, ola bilsin bu məsələdə Rusiyanın da barmağı var ki, orada müəyyən qanunsuz silahlı dəstələr saxlanılsın. İkinci variant isə o ola bilər ki, Rusiya bu məsələlərə nəzarət edə bilmir. Rusiya ordusunun bir mifi var idi ki, Rusiya hərbçiləri güclüdür və hər şeyə nəzarət edir. Ukrayna-Rusiya müharibəsində həmin mif dağıldı. Hər kəsə qalib gələcək bir ordu da yoxdur. Əgər orduda nizam-intizam yoxdursa, pozuculuq halları varsa, ordunun daxilində rəhbərliyə iddialı olanlar varsa, belə təsəvvür yaranır ki, vahid komandanlıq yoxdur. Bilirsiniz ki, Qarabağdakı Rusiya sülhməramlılarının komandanlığı tez-tez dəyişir. Hər dəfə də elə bil ki, həmin komandanın şəxsi xarakterinə uyğun hərəkət edilir. Hazırda sülhməramlıların komandanı Andrey Volkovdur. Onunla bağlı müxtəlif fikirlər səsləndirilir. Hətta bildirilir ki, bəzən o, Rusiyanın rəsmi siyasətinə uyğun olmayan mövqe də tutur. Nəticədə, pozulmuş bir ordu təsəvvürü yaranır. Əgər ordu pozulubsa, onun daxilində nizamsızlıq və pərakəndəlilik varsa, fərqi yoxdur, o, nizamlı orduya qarşı vuruşur və yaxud da hansısa qanunsuz silahlı dəstəyə qarşı mübarizə aparır. Yəni, effektli hərəkət edə bilmir.



***- Sizcə, Qarabağdakı qanunsuz erməni silahlı dəstələrinə qarşı anti-terror əməliyyatı həyata keçirilməlidirmi?***

- Biz baxmamalıyıq ki, regionda hər hansı digər bir hadisə baş verir və biz hərəkətlərimizi ona uyğunlaşdıraq. Biz öz məqsədlərimizə uyğun hərəkət etməliyik. 2020-ci ildə imzalanmış üçtərəfli bəyanata görə, həmin ərazilər Azərbaycan ərazisi kimi qəbul edilib. Nəticədə, həmin ərazilər həm bəyanata görə, həm tarixi və hüquqi baxımdan, həm də Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən tanınmış Azərbaycan ərazisidir. Həmin ərazilərdə Azərbaycan hakimiyyəti bərpa olunmalıdır. Ermənistan bir ovuc quldurun orada müstəqil hərəkət etməsi ilə bağlı yanlış təsəvvür yaratmamalıdır. Orada proseslər birbaşa Ermənistan tərəfindən idarə edilir. Əgər üçtərəfli razılaşma əldə olunubsa, deməli, Ermənistan rəhbərliyi şərait yaratmalıdır ki, Xankəndi, Xocalı, Əsgəran, Ağdərə və digər ərazilərdə Azərbaycan bayrağı dalğalansın, Azərbaycan hakimiyyəti həmin ərazilərdə bərqərar olsun.

***-Artıq il yarımdır ki, razılaşma var, amma Ermənistan həm siyasi -doplomatik sürüşkənlik edir, həm də qanunsuz silahlı dəstələrin əli ilə təxribatlar törədir. Belə olan təqdirdə nə etməliyik?***

-Əgər şərtlərə əməl olunmasa, Azərbaycanın mütləq iradəsi həmin ərazilərdə bərqərar olmasına, şərait yaradılmasa, Azərbaycan anti-terror əməliyyatı və yaxud hər hansı lokal hərbi əməliyyat da həyata keçirə bilər. 10 noyabr Bəyanatı imzalanandan sonra biz bildirdik ki, bu, böyük qələbədir, amma tam qələbə deyil. Tam qələbə tezisini irəli sürdük və onu dövlət qurumlarına da göndərdik. Orada bildirdik ki, Xankəndi və digər ərazilər də bizim nəzarətimizə keçdikdən sonra bu, tam qələbə hesab oluna bilər. Bunun isə iki yolu var. Ermənilər öz öhdəliklərinə əməl etməlidirlər ki, Azərbaycanın hərbi və polis qüvvələri oraya daxil olsun və eyni zamanda, dinc əhali geri qaytarılsın. Ya da bu məsələ hərbi yolla həll olunmalıdır. Belə görünür ki, artıq Azərbaycan hərbi yola əl atmalıdır. Dünyada hansı proseslərin getdiyi müəyyən mənada nəzərə alınmalıdır, amma buna çox da dərinə gedilməməlidir. İstənilən halda, ermənilər atəşkəsə əməl etmirlər. Xarici işlər nazirinin müavini Xələf Xələfov da açıqlamasında bildirdi ki, bu kontekdə müəyyən proseslər ola bilər. Müdafiə Nazirliyinin də son proseslərlə bağlı oxşar açıqlaması oldu. Açıq şəkildə deyilmədi ki, orada atışma davam edir yoxsa yox, amma həmin əraziləri bizim haqqımız olduğunu, oraya qayıtmalı olduğmuz və qayıdacağımız qeyd edildi.

***Z.Məmmədli***

***Bir neçə gün öncə Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) sabiq Aparat rəhbəri Rasim Quliyev azadlığa buraxıldı. Onun vəkili Rəsul Yusifbəylinin bildirdiyinə görə, Bakı Apellyasiya Məhkəməsinin hakimi İbrahim İbrahimlinin sədrliyi ilə keçirilən prosesdə apellyasiya şikayəti qismən təmin edilib: ”Rasim Quliyevin cəzası dəyişdirilərək 2 il müddətinə şərti hesab olunub”.***

# Hacıbala Abutalıbovun böyük sirri

## Sabiq merin “sağ əli” necə oldu ki, öncə az cəza aldı, sonra isə ümumiyyətlə azadlığa buraxıldı?



Qeyd edək ki, R.Quliyevin barəsində Cinayət Məcəlləsinin 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 314-2.3-cü (qanunla müəyyən olunmuş qaydaları pozmaqla tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermə ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham irəli sürülmüşdü. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə o, 3 il müddətinə azadlıqdan məhrum edilmiş, hökmdən narazı qalan məhkum apellyasiya şikayəti vermişdi. Göründüyü kimi, yuxarı instansiya məhkəməsi həmin şikayəti müəyyən qədər təmin edib və R.Quliyevin həbs cəzasını şərti cəza ilə əvəzləyib.

Əslində, bir zamanlar Hacıbala Abutalıbovun ”sağ əli” sayılan sabiq Aparat rəhbərinə verilən həbs cəzasının müddəti də bir çoxlarını haqlı olaraq təəccübləndirmişdi: axı ona Cinayət Məcəlləsinin 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 314-2.3-cü (qanunla müəyyən olunmuş qaydaları pozmaqla tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermə ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham elan edilmişdi. Bu səbəbdən də hesab olunurdu ki, daha ağır cəza alacaq. Lakin belə olmadı və prokurorun 6 il cəza istədiyi R.Quliyevə bunun yarısı qədər həbs qərarı verildi.

Sözügedən cinayət işi və məhkəmə prosesi barədə ən ilginc nüans isə, heç şübhəsiz, Bakının eks-meri Hacıbala Abutalıbovun adının da tez-tez gündəmə gəlməsi idi. Belə ki, sabiq Aparat rəhbəri onun ünvanına ilginc iddialar səsləndirirdi. Məsələn, R.Quliyev məhkəmə iclaslarının birində Hacıbala müəllimin BŞİH rəhbəri vəzifəsindən getdikdən sonra da qurum üzərində təsir imkanlarını saxladığına dair çarpıcı ifadə verib, bir çox qanunsuz qərarlara imza atılmasını, dolayı yolla da olsa, etiraf eləmişdi. Başqa bir məhkəmə prosesində isə paytaxtın İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəis müavini və Baş memarı olmuş Akif Abdullayev normal məntiqlə izah edə bilməyəcəyimiz, kifayət qədər qalmaqallı fikirlər dilə gətirmişdi. Demişdi ki, hansısa bina tikintisinə icazə verilərkən daxil olan sənədə icazə verilində sənədləri araşdırmağa ixtiyarı olmayıb: ”Memarlıq və Şəhərsalma Baş İdarəsinin səlahiyyətləri tikinti üzrə sənədləri araşdırmaqla bağlı idi. Hacıbala Abutalıbov sənədləri araşdırıb qərara gələndən sonra rəylər bizə daxil olurdu, biz də razılıq verirdik”.

O əlavə eləmişdi ki, Bakı şəhər İcra Hakimiyyətinə daxil olan müraciətlərə mənfi rəy verilməyib: ”Yerli icra hakimiyyəti rəy bildirirdi, Bakı Şəhər İcra Hakimiyyəti sərəncam verirdi”. Hakimin ”Kimsə müraciət etsə ki, Qız Qalasını sökün, sökəcəkdiniz” sualına A.Abdullayevin cavabına isə adam bilmirdi gülsün, yoxsa ağlasın: “Lazım olsa, rəy alıb onu da sökmək olar”...

Bu deyilənlər Abutalıbovun BŞİH-ə rəhbərlik etdiyi dövrdə meriyada hansı iş mühitinin, əhval-ruhiyyənin hökm sürdüyünü aydın şəkildə gözlər önünə sərirdi.

Ancaq maraqlıdır ki, Hacıbala müəllim keçmiş Aparat rəhbərinin məhkəmə proseslərində verilən bütün bu çarpıcı, skandal xarakterli ifadələr, həmin ifadələrdə bu və ya digər formada onun özünü də töhmət altında qoyan açıqlamalar barədə inadla susdu. Mümkündür ki, bununla o, adının R.Quliyevlə bağlı məhkəmə prosesindən mümkün qədər uzaq qalmasına çalışırdı? Elə isə başqa bir sual meydana çıxırdı: niyə? Yoxsa bu hüquqi prosesin sonda onun özünədək uzana biləcəyindən əndişəlidir?!

Bu suallara konkret cavab vermək çətindir. Bircə o məlumdur ki, sözügedən məhkəmə prosesinin sonlarına doğru Abutalıbovun adı yavaş-yavaş, lap axırda isə tamam unuduldu. Onu nə sabiq Aparat rəhbəri, nə də digərləri xatırladı. Maraqlı odur ki, bunun fonunda R.Quliyev gözlənildiyindən xeyli az cəza aldı.

Ən maraqlısı isə sonda baş verdi: sabiq Aparat rəhbəri hətta bu az cəzanı da həbsxanada çəkməkdən qurtuldu və faktiki olaraq azadlığa buraxıldı. Halbuki onun heç olmasa həmin müddəti sonadək dəmir barmaqlıqlar ardında çəkəcəyini düşünənlər var idi. Belə düşünənlər də yanıldı.

İndi dövriyyədə yeni sual, daha doğrusu, sirlərlə dolu sual dolaşır: Hacıbala Abutalıbovun öz keçmiş ”sağ əli”nin kifayət qədər ağır ittihamlara baxmayaraq öncə az cəza almasında, bir il keçmədən isə azadlığa buraxılmasında hansısa rolu varmı? Varsa, Abutalıbovu belə bir rolu üzərinə götürməyə nə vadar edib?!

***Sənan Mirzə***

# Azərbaycan-Avropa İttifaqı təhlükəsizlik dialoqunun 3-cü raundu keçirildi



***Bakıda Azərbaycan-Avropa İttifaqı təhlükəsizlik dialoqunun 3-cü raundu keçirilib.***

“Unikal” xəbər verir ki, bu barədə Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tviter hesabında bildirib.

”Görüşdə regional məsələlər, enerji, kibertəhlükəsizlik, narkotiklərin qanunsuz dövriyyəsi, qeyri-qanuni miqrasiya ilə mübarizə və s. üzrə fikir mübadiləsi aparılıb”, - paylaşımda deyilir.

# Kremldən Baydenin Putinə qarşı ittihamlarına reaksiya



***ABŞ prezidenti Co Baydenin Rusiya prezidenti Vladimir Putinlə bağlı açıqlamaları qəbuledilməzdir, başqa dövlətləri bombalayan ölkə prezidentinin belə sözlərə haqqı yoxdur.***

”Unikal” xəbər verir ki, bunu Kremlin mətbuat katibi Dmitri Peskov bildirib.

”Prezidentimiz çox müdrik, uzaqgörən və mədəni beynəlxalq xadimdir və Rusiya Federasiyasının rəhbəri, dövlət başçısıdır. Cənab Baydenin bu cür bəyanatları barədə - mən artıq dünən dedim - onlar tamamilə qəbuledilməzdir, bağışlanmazdır. Ən əsası, yəqin ki, bütün dünyada insanları bombalayan dövlət başçısının bu sözləri demək hüququ ola bilməz”, - deyə Peskov vurğulayıb.

# MEDİA və ADA Universiteti arasında memorandum imzalandı



***17 mart 2022-ci il tarixində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və ADA Universiteti arasında əməkdaşlıq memorandumu imzalanıb.***

MEDİA-dan ”Unikal”a verilən məlumata görə, sənədin imzalanmasında məqsəd ADA Universiteti və MEDİA Agentliyi arasında müştərək layihələrin reallaşdırılması istiqamətində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin qurulması, elmi-praktiki tədbirlərin, tələbələrin təcrübi biliklərinin artırılması, habelə media sahəsində mütəxəssislərin hazırlanması və onların əlavə təhsilinin təşkil edilməsidir.

Sənədi Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov və ADA Universitetinin prorektoru Fariz İsmayılzadə imzalayıblar.

Memoranduma əsasən, tədris ili ərzində istehsalat təcrübəsinin və yay təcrübə proqramlarının keçirilməsi, bununla yanaşı təhsil sahəsində müasir texnologiyaların və elmi inkişafın istifadəsində qarşılıqlı əlaqələndirmənin təmin edilməsi nəzərdə tutulub.

Memorandum çərçivəsində tərəflərin nümayəndələrinin iştirakı ilə birgə layihə və tədqiqatlar həyata keçiriləcək, konfranslar, təlimlər və seminarlar təşkil ediləcək.

Əməkdaşlıq memorandumu tələbələri MEDİA Agentliyinin fəaliyyəti və mövcud olan vəzifələr haqqında məlumatlandırmaq məqsədilə Universitetdə “Karyera günləri”nin keçirilməsini də nəzərdə tutur. Həmçinin tələbələrin kurs və buraxılış işləri, magistrantların dissertasiya mövzuları Agentliyin həyata keçirdiyi layihələrin məzmunu ilə əlaqələndiriləcək.

# Polşa, Çexiya və Sloveniya baş nazirləri Ukraynaya niyə getmişdi?



***Paytaxt Kiyevdə Ukrayna prezidenti Volodimir Zelenski və digər rəsmilərlə görüşən nümayəndə heyəti martın 16-da Polşaya geri dönüblər.***

Polşa hökumətinin mətbuat katibi Piotr Müller bildirib ki, missiyanı başa vuran baş nazirlər Mateuş Moravetski (Polşa), Petr Fiala (Çexiya) və Yanez Yanşe (Sloveniya) Aİ Şurasının sədri Şarl Mişellə səfərin yekunlarına dair fikir mübadiləsi aparıblar. Polşanın Baş nazirinin müşaviri Mixal Dvorçuk səfərin yekunları ilə bağlı mətbuata verdiyi açıqlamada Polşanın təklif etdiyi sülhməramlı missiya barədə danışıb. O bildirib ki, Polşanın bu müraciəti təkcə Avropaya deyil, bütün dünyaya ünvanlanıb və müharibənin sona çatdırılması üçün realist həllin tapılmasına kömək etməlidir. Ona görə də vəziyyətin nizamlanması Şimali Atlantika Alyansı səviyyəsində müzakirə edilməlidir.

Böyük hadisələr dövrünün astanasında olduğumuz hər kəsə bəllidir. Rusiya-Ukrayna müharibəsində ya danışıqların nəticəsi kimi atəşkəs elan olunacaq (aralıq sənəd də imzalana bilər), ya da bu müharibənin ən qanlı dövrü başlayacaq və yeni mərhələyə qədəm qoyulacaq. Fikirlərimizi əsaslandıraq: - Zelenskinin prezident ofisindən artıq bildirirlər ki, Moskva ilə danışıqlar əsasında razılıq əldə etmək mümkündür; - Öz növbəsində Rusiyadan bildirilir ki, razılaşmanı hansısa bir formaya salmaq mümkündür. BMT TŞ-nin qətnaməsi formasında olacağı da istisna edilmir. Sənədə vurulacaq möhür də mühüm əhəmiyyət kəsb edir; - Qərb media orqanlarında Rusiyanın silah üçün Çinə müraciət etməsi tirajlandı. Bu nəyə görə edilir? Gələcəkdə belə müraciət olarsa Çinin məsələni bəri başdan təkzib etməsi ilə nəticələndirmək mümkün olsun; - ABŞ prezidentinin təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivanla Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev arasındakı danışıqların keçirilməsinə hazırlıq işləri görülür; - ABŞ ən varlı tamaşaçıları olan CNBC kanalı media seqmentinə məlumat buraxır ki, ABŞ dəniz ticarəti də daxil olmaqla Rusiyaya qarşı ticari-iqtisadi blokadaya salmağa hazırlaşır. Bu isə nəyə gətirib çıxarır? Bəli! Müharibəyə! Bu isə müharibənin elan olunması da deyil? Bu elə müharibədir! Tarixə nəzər salsaq, Napoleonun Rusiyaya daxil olması, Borodino savaşı da daxil olmaqla müharibə ona görə baş verdi ki, Fransa İngiltərəyə qarşı blokada elan etdi. Buna görə də baş verənləri çox ciddi və ağır xəbərdarlıq kimi qəbul edə bilərik.

Baş nazirlərin Ukraynaya səfərinə gəlincə, çox güclü təhlükəsizlik tədbirlərinin həyata keçirildiyini qeyd edə bilərik. Bütün gün ərzində komendant saatı elan olunmuşdu. Analogiya aparsaq bu cür səfər bir dəfə həyata keçirilmişdi. Həmin nümunədə də Rusiya təcavüz etmişdi və Avropanı təmsil edən yüksək vəzifəli rəsmilər təcavüzə məruz qalan ölkəyə səfər etmişdilər. 2008-ci ilin 13 avqustunda Polşa, Ukrayna, Estoniya, Latviya və Litva prezidentləri Tbilisi şəhərinə gəlmişdilər. Onlar nümayişçilər önündə çıxış etmişdilər. Bu, 5 günlük müharibənin məhz 5-ci günündə baş vermişdi! Həmin dövrdə də xüsusilə ABŞ-ın orbitində olan dövlətlərin və beynəlxalq təzyiqlərin güclü olduğunu qeyd edə bilərik. Müharibənin 5 gün davam etməsinin səbəbi kimi Avropa liderlərinin səfərini və Rustaveli prospektində çıxış etməsini hipotetik də olsa güman etsək Rusiya və Ukrayna arasında ehtimal olunan razılaşma yaxın günlərdə imzalanacaq. Bu gün təhlükənin də pik həddində olduğunu nəzərə alaraq sözügedən səfər baş nazirlər səviyyəsində reallaşdı.

Hazırda Kreşatikə qədər gedib çıxmaq hər prezidentin hünəri də deyil. Xüsusilə vurğulamaq lazımdır ki, 2008-ci ildə baş verən səfərdə təhlükəsizlik zəmanəti də verilməmişdi. Baş nazirlərin arasında Gürcüstan təmsilçinin olmaması da diqqət çəkir. Çexiyanın baş naziri Petr Fiala, Polşanın baş naziri Mateuş Moravetski və Sloveniyanın baş naziri Yanez Yanşeyin arasında 2008-ci ildə göstərilən dəstək və həmrəyliyin ödənilməsi baxımdan Gürcüstanın baş naziri İrakli Qaribaşvili də ola bilərdi. Amma bu artıq başqa təhlilin mövzusudur...

***Politoloq İlyas Hüseynov***

# Elxan Məmmədovun "vurulmasının" pərdəarxası

## "Unikal"ın yazdıqları təsdiqləndi - AFFA-da gözlənilən oldu, baş katib əvəzləndi, bəs görəsən niyə məhz indi?

***Dünən AFFA İcraiyyə Komitəsinin videokonfrans formatında iclası keçirilib. Müzakirələrdən sonra bəzi qərarlar qəbul olunub.***

Qurumun 2020-ci il yanvarın 28-də təşkil olunan Konfransında Nizamnaməyə uyğun olaraq həyata keçirilmiş struktur dəyişikliyi, AVRO-2020-nin və AVRO-2020 ilə bağlı hesabat işlərinin başa çatması, həmçinin müvafiq hüquqi prosedurlar nəzərə alınaraq, AFFA-nın baş katibi vəzifəsi bu günə qədər baş katibin müavini vəzifəsində çalışan Sərxan Hacıyevə həvalə olunub.

O, bu postda icraçı vitse-prezident Elxan Məmmədovu əvəz edib. E.Məmmədovun baş katibi postundan getməsi əslində bir o qədər sürpriz deyil: hələ ötən ay "Unikal" qəzeti olaraq yazmışdıq ki, bu gedişlə E.Məmmədov indiki postunu qoruya bilməyəcək. "Bu iddianın gerçəkləşib-gerçəkləşməyəcəyini, əlbəttə ki, zaman göstərəcək. Lakin belə bir qərar veriləcəyi təqdirdə bunun futbol ictimaiyyətinin mütləq kəsimi üçün toy-bayrama çevriləcəyini asanlıqla təxmin etmək mümkündür" deyə həmin məqalədə vurğulamışdıq.



Unutmayaq ki, son zamanlar xüsusilə milli komandanın Avropa və dünya çempionatlarının seçmə mərhələlərindəki uğursuz çıxışı sonrası E.Məmmədova istefa çağırışlarının edilməsi adiləşib. Ötən ilin noyabrında bu mövzu ilə bağlı danışan baş katib demişdi: "Əgər rəhbərlik istəsə və düşünülsə ki, mən getsəm, hər şey düzələcək, onda mən özüm də istefaya gedərəm".

E.Məmmədov qeyd eləmişdi ki, AFFA rəhbərliyinin bugünkü fəaliyyəti bəzi insanları qane etmir: "Çünki biz onların çirkin işlərinə mane oluruq. Ona görə milli komanda uduzan kimi bu kampaniyalar başlayır".

Məmmədovun belə reaksiyası anlaşılmaz idi. Elə çıxırdı ki, azarkeşlər, futbol ictimaiyyətinin nümayəndələri millimizin hətta cırtan ölkələrin yığmalarına belə uduzmasını, məsələn, aylar öncə DÇ-2022-nin seçmə mərhələsi çərçivəsində səfərdə Avropanın ən zəiflərindən sayılan Lüksemburqa 1:2 hesabı ilə məğlub olmasını alqışlamalıdır. Eyni zamanda baş katibin "bəzi insanlar" söylədikdə kimi, onların "çirkin işlər"i dedikdə isə nəyi nəzərdə tutduğu da məlum deyildi. Həm də ölkənin idman mətbuatı AFFA-nın özündə müəmmalı maliyyə işləri barədə mütəmadi yazdığı halda!..

Ümumiyyətlə, uzun müddət idi ki, Məmmədovun fəaliyyəti futbol ictimaiyyəti tərəfindən birmənalı qiymətləndirilmirdi. Millimizin uğursuzluqlarından tutmuş ölkənin futbol çempionatlarının istənilən səviyyədə olmaması, klubların mütləq əksəriyyətinin acınacaqlı durumu məhz baş katibin məqbul sayılmayan iş prinsiplərinin nəticəsi kimi dəyərləndirilirdi.

Sabiq baş katiblə bağlı idman mediasında və cameəsindəki əsas ittihamlardan biri isə maliyyə ilə bağlı idi. Bu qurumda pulların şəffaf xərclənməməsi, korrupsiyaya yol verilməsi ilə bağlı iddialar getdikcə güclənirdi, həmin iddiaların əsas hədəfi isə E.Məmmədov idi. Bəs o, Baş katib vəzifəsindən niyə məhz indi kənarlaşdırıldı?

Xatırladaq ki, Rövnəq Abdullayev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti vəzifəsindən azad edilərək, iqtisadiyyat nazirinin müavini təyin olunub. Bu qərardan sonra futbol ictimaiyyətində sual yaranıb: Rövnəq Abdullayev Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) prezidenti vəzifəsindən də gedəcəkmi? İstisna deyil ki, E.Məmmədovun baş katib vəzifəsindən getməsi eyni zamanda AFFA-ya yeni prezident seçiləcəyinin siqnalıdır. Lakin ən önəmli səbəb kimi E.Məmmədovla bağlı son günlər ortaya atılan ilginc iddiadan gedir. İdman mediasının, konkret olaraq, "futbolinfo.az"ın yazdığına görə, Azərbaycan Premyer Liqasının iştirakçılarından biri "Keşlə" növbəti ev oyununu da Bakıda keçirəcək. Məsələ burasındadır ki, həmin klub Şamaxıya köçüb, bu şəhərin adını daşımalı idi. Lakin komandanın bölgəyə gedişi ləngiyir.

Ən ilginci isə odur ki, Peşəkar Futbol Liqasının (PFL) nümayəndələri ötən həftə Şamaxıda yerli stadionu təftiş edib. Bu isə o demək idi ki, qarşıdakı turun "Sumqayıt"la oyunu bölgədə baş tutmalı idi. Lakin yoxlamadan sonra PFL rəsmiləri açıqlama verib ki, "Keşlə" növbəti turu da paytaxtda keçirməli olacaq. Çünki stadion Premyer Liqa matçını qəbul etməyə hazır deyil, problemlər var. Belə çıxır ki, E.Məmmədov dövlət rəhbərliyinə yanlış məlumat verib. Çünki ötən ilin noyabrında Şamaxı stadionunun açılışı zamanı o, ölkə başçısına sözügedən qurğunu hazır imiş kimi təqdim edib.

İndi isə belə məlum olur ki, keçmiş baş katib yalan danışıb. Stadionda problem o qədər çox imiş ki, hətta onları aradan qaldırmaq üçün aradan keçən 4 ay yarım da kifayət etməyib. "Açılış noyabrın 1-də olub, mart yarılanarkən belə "Keşlə" Şamaxıya köçə bilmir. Hətta stadionun açılışından dərhal sonra klubun adını dəyişməsi, ilin əvvəlində bölgəyə yollanacağı barədə tələsik açıqlamalar da şou imiş" deyə idman mediası yazır. Hətta UEFA-dan verilən sertifikatla bağlı da şübhələr ortaya çıxıb. "Necə ola bilər ki, beynəlxalq sertifikat alan arena PFL tərəfindən Premyer Liqa matçları üçün yetərli sayılmasın?" - deyə "futbolinfo.az" haqlı olaraq sual edir.

Göründüyü kimi, AFFA-nın sabiq baş katibi ilə bağlı qalmaqallar zaman keçdikcə səngimir, əksinə, daha da güclənir, üstəlik, inanılmaz xarakter alırdı. Belədə isə onun baş katib vəzifəsində əvəzlənməsindən təbii nə ola bilərdi?!

Düzdür, E.Məmmədov bu qurumdakı iki postundan hələlik birini itirib, lakin bu cür davam edərsə onun digər vəzifəsindən - vitse-prezidentlikdən uzaqlaşdırılması da qaçılmazdır...

***Toğrul Əliyev***

# Fazil Məmmədovun əndrəbadi "federasiya oyunları"...

## Sabiq nazirlə bağlı növbəti ağır ittihamlar: keçmiş "vergi şefi" AGF-ni necə çökdürübmüş?



***Prezident İlham Əliyev martın 17-də 23 yaşadək idmançıların Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul edərkən deyib ki, son vaxtlar Güləş Federasiyasında gedən proseslər narahatlıq doğururdu və durğunluq hiss olunurdu. Güləş Federasiyasında idarəetmə mexanizmi zəifləmişdi, faktiki olaraq özbaşınalıq hökm sürürdü.***

"Əlbəttə ki, bu, nəticələrə də mənfi təsir göstərmişdir və bu, təbiidir. Ona görə Güləş Federasiyasının rəhbərliyinin dəyişdirilməsi zəruri idi, bu, baş verdi. Əminəm ki, federasiya indi həm buraxılmış bütün nöqsanları aradan qaldıracaq, vəziyyəti təhlil edəcək, - mənə məlumat verilib ki, artıq bu işlərə start verilib, - əlbəttə ki, idmançılara - həm gənclər, həm də böyüklər arasında çıxış edən idmançılara lazımi şərait yaradacaqdır" deyə ölkə başçısı əlavə edib.

Qeyd edək ki, prezidentin tənqid etdiyi dövrdə Azərbaycan Güləş Federasiyasının (AGF) prezidenti Fazil Məmmədov olub. Söhbət sabiq vergilər nazirindən gedir.

"Unikal"ın araşdırmasına görə, 2017-ci ilin dekabrında nazir postundan uzaqlaşdırıldıqdan sonra Güləş Federasiyasına baş çəkirmiş. Həmin vaxtkı federasiya təmsilçilərinin dediyinə görə, o, AGF prezidenti postunu tərk etməyi hətta planlaşdırmırmış.

Fazil Məmmədovun hər səhər işə gəldiyi, məşqçilərə və güləşçilərə öz tövsiyələrini verdiyi, onların qarşısında yeni vəzifələr qoyduğu deyilir, güləşçilərin Tokioda keçiriləcək 2020-ci il Olimpiadasına yaxşı hazırlaşması üçün əlindən gələni etdiyi vurğulanırdı.

Eyni zamanda Federasiyanın maliyyə probleminin olmadığı söylənilir, güləşçilərə və məşqçilərə maaşların, mükafatların vaxtlı-vaxtında ödənildiyi bildirilirdi.

Lakin cəmi bir neçə ay sonra məlum oldu ki, sabiq vergilər naziri AGF prezidenti vəzifəsindən rəsmən ayrılıb. Belə ki, o, istefa ərizəsi yazıb. Çox keçmədən isə F.Məmmədovun adı federasiyanın saytından çıxarılıb.

Ölkə başçısının tənqidlərindən belə aydın olur ki, eks-nazirin AGF prezidentliyindən uzaqlaşdırılması təsadüf olmayıb. Bu həmin qurumda, - eynilə vergi sistemində olduğu kimi! - özbaşınalıqlarla, nöqsanlarla birbaşa bağlı imiş.

Hərçənd o zamanlar 10 ildən çoxdur AGF prezidenti postunda olan Məmmədovun gedişi iki səbəblə əlaqələndirildi. Bəziləri iddia edirdi ki, keçmiş "vergilər şefi" səhhəti ilə əlaqədar olaraq federasiya rəhbərliyindən istefa verib.

Bəzilərinin iddiasına görə isə sabiq nazirin istefa qərarında əsas rolu mərhum gənclər və idman naziri Azad Rəhimovun rəhbərliyi ilə keçirilən iclasa dəvət edilməməsi və nizamnaməyə əsasən 1-ci vitse-prezidenti seçmək hüququnun məhz federasiya prezidentinə məxsus olması oynayıb. Belə ki, həmin iclasda Azad Rəhimov AFF-nin 1-ci vitse-prezident vəzifəsinə Namiq Əliyevi qaytarıb. Buna etiraz olaraq Fazil Məmmədov prezidentlikdən gedib. Ancaq indi aydın olur ki, əsl səbəbi Fazil Məmmədovun dövründə Güləş Federasiyasının fəaliyyətinin iflic vəziyyətinə düşməsində axtarmaq lazımdır.

İş o yerə çatmışdı ki, AGF-nin işçiləri çalışdıqları quruma qarşı məhkəmə iddiası qaldırmışdılar. Belə ki, Balağa Zamanov, Mikayıl Xaliqov, Nizami Hacıyev və Orxan İmaməliyev iddia ərizəsində federasiyadan dörd aylıq maaşlarını və məzuniyyət pullarının ödənilməsini tələb edib.

Məhkəmə iddianı qismən təmin eləmişdi. Qərar belə olmuşdu ki, federasiya maaşları ödəsin, məzuniyyət pulları isə ödənilməsin. AGF Nərimanov Rayon Məhkəməsinin bu qərarı ilə razılaşmayaraq apellyasiya şikayəti vermişdi. Üstəlik, federasiya daxilindəki narazılıqları artıran açıqlama yayınlamışdı. Bildirmişdi ki, "ictimai birlik olaraq Azərbaycan Güləş Federasiyasının idmançılara maaş vermək kimi bir öhdəliyi yoxdur. Sponsorlar tərəfindən maliyyə ayrıldığı zaman federasiya rəhbərliyinin təşəbbüsü ilə idmançıların əldə etdiyi nəticələrə uyğun olaraq yığma komandanın üzvlərinə maddi yardımlar verilib. Belə yardımların verilməsi idmançıların ailə, məişət problemlərinin həllində onlara dəstək vermək məqsədi daşıyıb".

Bu açıqlama AGF-də işlərin nəinki yolunda getmədiyini, ümumiyyətlə, heç bir işgüzar mühitin qalmadığını göstərirdi.

Ümumiyyətlə, bu federasiyaya rəhbərlik etdiyi dövrdə Fazil Məmmədov özünə yaxın olan şəxslərin dediklərinin əksinə, qurumun fəaliyyətini nəinki istənilən səviyyəyə qaldıra bilmiş, əksinə, dövlət başçısının da vurğuladığı kimi, durğunluğa, özbaşınalığa "yaşıl işıq" yandırmışdı.

Hətta belə iddialar var ki, F.Məmmədov AGF üçün nəzərdə tutulan vəsaitlərin bir hissəsini öz şəxsi biznes işlərinə yönəldirmiş, halbuki eks-nazirin vəzifəsi Azərbaycanda qədim, zəngin ənənələri olan güləşi maliyyələşdirərək parlaq uğurlara imza atmaq idi.

Bir sözlə, növbəti dəfə təsdiqlənir ki, istər nazir, istərsə də AGF prezidenti olarkən vəzifəsinin öhdəsindən layiqincə gələ bilməyən Fazil müəllimin yeganə yaxşı bacardığı iş ailə biznesini böyütmək, genişləndirmək olub, vəssalam!

**Sənan Mirzə**

# Dövlət Komitəsi Avropa Parlamentinin qətnaməsinə etiraz etdi



***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Avropa Parlamentinin martın 10-da qəbul etdiyi qətnaməyə etiraz olaraq bəyanat qəbul edib və həmin sənəd Avropa Parlamentinə göndərilib.***

Komitədən "Unikal"a verilən xəbərə görə, bəyanatda sözügedən qətnamə Azərbaycanın beynəlxalq hüquqla tanınan ərazi bütövlüyü və suverenliyinin şübhə altına alınmasına, aqressiv separatizmin açıq şəkildə dəstəklənməsinə, o cümlədən azad edilmiş ərazilərdə Azərbaycana məxsus tarixi, dini-mədəni irsin erməniləşdirilməsinə hüquqi don geyindirilməsi cəhdlərinə yönəlik addım kimi şiddətlə qınanılıb və qərəzli hesab edilib.Sənədin erməni lobbi qruplarının təsiri altında hazırlandığı bildirilərək, onun real vəziyyəti əks etdirmədiyini, Azərbaycan tərəfinin tarixi-dini, o cümlədən qəbirüstü abidələrə olan həqiqi münasibəti fonunda ermənilərin saxta iddialarını özündə əks etdirdiyi təəssüflə qeyd edilib.

Eyni zamanda vurğulanıb ki, qətnamədə Azərbaycanın işğaldan azad olunmuş ərazilərində "erməni" abidələri heç bir fakta söykənməyən rəqəmlərlə göstərildiyi halda Azərbaycana məxsus tarixi-dini abidələrin aqibətinə göz yumulur. Belə ki, azad edilmiş ərazilərdə (67 məsciddən 65-i dağıdılmış, Ağdam Cümə məscidi hərbi məqsəd naminə qismən salamat saxlanılıb, Şuşadakı Yuxarı Gövhərağa məscidi isə təmir adı altında saxtalaşdırılaraq fars məscidi kimi təqdim edilib) və bugünkü Ermənistan ərazisində qarşı tərəfdən azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımın həyata keçirilməsi, Azərbaycan toponimlərinin erməniləşdirilməsi, yüzlərlə tarixi-mədəni abidələrlə bərabər, məscid, ziyarətgahların dağıdılması və heyvanlar saxlanılmaqla dini dəyərlərin təhqir edilməsi, həmçinin ölkəmizin Xristianlığa aid irsinin - Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasının varisi olduğu Qafqaz Albaniyasının Alban Apostol kilsəsinin, eləcə də pravoslav xristian məbədlərinin saxtalaşdırılaraq qriqoryanlaşdırılması və ya məhv edilməsi faktı məqsədli şəkildə göstərilmir. Ümumiyyətlə, Azərbaycanın dini-mədəni irsinin məruz qaldığı vandalizm aktları barədə heç bir qeydə rast gəlmək mümkün deyil.

Dövlət Komitəsinin bəyanatında işğal dövründə erməni vandalları tərəfindən hətta qəbiristanlıqlara da aman verilmədiyinə, ümumilikdə təqribən 900-dən çox qəbiristanlığın tamamilə dağıdılaraq yerlə bir edilməsinə, qəbir daşlarının sındırılmasına, məzarların qazılaraq cəsədlərin çıxarılmasına, təhqir olunmasına, qəbirüstü abidələrin talan edilməsinə, Azərbaycan vətəndaşlarının 30 il ərzində öz yaxınlarının məzarlarını ziyarətdən məhrum edilməsinə diqqət yönəldilib.

Etiraz Bəyanatında 44 günlük Vətən müharibəsi müddətində Azərbaycan Silahlı Qüvvələri tərəfindən düşmənin mülki obyektlərinə, habelə dini təyinatlı binalara hər hansı hücum əməliyyatı həyata keçirilməməsi xarici jurnalistlərin belə dəfələrlə təsdiqlədiyi fakt kimi bir daha vurğulanmışdır. Hərbi əməliyyatlar bitdikdən dərhal sonra Azərbaycan hökuməti tərəfindən azad olunmuş ərazilərdə Ermənistan Silahlı Qüvvələri tərəfindən dağıdılmış bütün dini abidələrin bərpa edilməsinin bəyan edilməsi, həmin ərazilərin sosial-iqtisadi inkişaf planının hazırlanması üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına əsasən, "Böyük Qayıdış" proqramı əsasında bərpa prosesinin başlandığı öz əksini tapmışdır. Habelə Azərbaycan tərəfindən bütün ölkə miqyasında olduğu kimi, Ermənistanın işğalından azad edilmiş ərazilərimizdəki tarixi-dini abidələrin Azərbaycan irsinə məxsusluğu və onların qorunmasının Azərbaycan dövlətinin öhdəliyində olmasının müxtəlif kürsülərdən ən yüksək səviyyədə dəfələrlə bildirildiyi qeyd edilib.

Şuşada məscidlərlə yanaşı, iki kilsənin bərpası Azərbaycanın abidələrə qarşı fərq qoymaması, əksinə müxtəlif mədəniyyətlərə və dinlərə hörmət nümayiş etdirməsi , bütün dini nümunələri milli-mənəvi dəyərlərinin bir parçası kimi qəbul etməsinin bariz göstəricisi kimi vurğulanıb.

Qeyd edilənlərlə yanaşı, Azərbaycanın Ermənistandan fərqli olaraq, tarixi-mədəni irsinə dini və etnik zəmində ayrı-seçkilik etmədiyi və Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında 1954-cü il Haaqa Konvensiyası da daxil olmaqla, beynəlxalq konvensiyalar üzrə öhdəliklərinə sadiqliyi, qarşı tərəfin isə əksinə, Konvensiya ilə bərabər "Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt", "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyası və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyası və s. beynəlxalq norma və standartların tələblərini kobud surətdə pozduğu ifadə edilmişdir.

Bəyanatda 2022-ci il fevral ayının 4-də Azərbaycan Respublikasının Prezidenti, Avropa İttifaqına sədrliyi qismində Fransa Prezidenti, Avropa İttifaqı Şurasının Prezidenti və Ermənistan Respublikasının baş nazirinin iştirakı ilə videoformatda keçirilmiş görüşün nəticəsi olaraq UNESCO missiyasının Azərbaycana və Ermənistana göndərilməsinə dair razılıq ifadə edilməsi Ermənistan ərazisində Azərbaycan xalqına məxsus mədəni irsin vəziyyətinin öyrənilməsi zərurətinin təsdiqi olduğu bildirilmiş, Avropa Parlamentinin qəbul etdiyi qətnamədə nədənsə bu məsələyə ümumiyyətlə toxunulmaması təəssüflə qarşılanıb.

Sonda Dövlət Komitəsi Avropa Parlamentinin erməni mənbələrinə əsaslanan qərəzli məlumatlar yaymaq cəhdini bir daha şiddətlə qınamaqla sözügedən qurumu gələcəkdə obyektiv qətnamələrin qəbuluna çağırıb.




# Meksikanın Deputatlar Palatasında Azərbaycanla Dostluq Qrupu yaradılıb

***Meksika Deputatlar Palatasında Konqresin 65-ci çağırış üzvlərindən ibarət Meksika-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun inauqurasiyası mərasimi keçirilib.***

Azərbaycanın Meksikadakı Səfirliyindən verilən məlumata görə, mərasimdə Meksika Deputatlar Palatasının üzvü, hakim "Morena" partiyasının təmsilçisi və Azərbaycan-Meksika Dostluq Qrupunun sədri deputat Migel Anxel Peres Navarrete, Parlamentin Beynəlxalq Əlaqələr Komissiyasının sədri deputat Alfredo Femat Banyuelos, Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarındakı səfiri Məmməd Talıbov, digər millət vəkilləri, Meksika Xarici İşlər Nazirliyinin, QHT və yerli KİV nümayəndələri iştirak ediblər.

Tədbiri çıxış sözü ilə açan millət vəkili M.A. Peres Navarrete Meksika ilə Azərbaycan arasında daim dostluq münasibətlərinin mövcud olduğunu, müxtəlif sahələrdə səmərəli əməkdaşlığın həyata keçirildiyini deyib. Azərbaycanı müasir və bərabər hüquqları təşviq edən böyük iqtisadi baxışa malik, bir çox ölkələr üçün nümunə ola biləcək bir ölkə adlandırıb. Tədbir iştirakçılarına ölkəmiz haqqında məlumat verən millət vəkili, bu il iki ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30 illik yubileyinin qeyd olunduğunu qeyd edib, dostluq qrupunun bu münasibətlərin daha da möhkəmləndirilməsinə öz töhvəsini verəcəyinə ümidvar olduğunu bildirib. O həmçinin, Azərbaycanın 30 ilə yaxın davam edən təcavüz siyasətinə son qoyulduğunu və nəticədə öz ərazi bütövlüyünü bərpa etdiyini xüsusi vurğulayaraq, hazırda ölkə Prezidenti İlham Əliyev tərəfindən aparılan uğurlu siyasət sayəsində işğaldan azad edilmiş bölgədə intensiv minatəmizləmə və quruculuq işlərinin həyata keçirildiyini bildirib.

Ölkəmizin Meksikadakı səfiri M.Talıbov çıxış edərək, Parlamentlərarası qrupun yaradılmasının iki ölkə arasındakı əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar yaratdığını qeyd edib. Diplomatik münasibətlərin 30 illik müddəti ərzində ikitərəfli əməkdaşlığın qarşılıqlı hörmət prinsipləri əsasında həyata keçirildiyini, parlamentlərarası əlaqələrin hər zaman nümunəvi olduğunu, hər iki qanunverici orqandakı parlamentlərarası dostluq qrupları arasında ənənəvi görüşlərin keçirildiyini qeyd edib.

Meksika Konqresinin Azərbaycan üçün həssas məsələlərdə həmişə ədalətli mövqe nümayiş etdirdiyini qeyd edən səfir, münaqişə zamanı Meksika Konqresinin daim beynəlxalq hüquq mövqeyindən çıxış etdiyini söyləyib, bu xüsusda Konqres tərəfindən Azərbaycana qarşı erməni təcavüzünü pisləyən və Xocalı soyqırımını tanıyan sənədlərin qəbul edilməsini xüsusilə vurğulayıb.

Qrupun üzvü, Meksikalı pilot Serxio Peresin (Çeko Peres) atası deputat Marko Antonio Peres Qaribay çıxış edərək, oğlunun Azərbaycanda keçirilən Formula 1 yarışlarında üç dəfə qalib kürsüsünə çıxdığını vurğulayıb, Azərbaycan xalqı tərəfindən göstərilən qonaqpərvərlik və səmimiyyətə görə ölkəmizə xüsusi rəğbət bəslədiyini qeyd edib. Parlamentlərarası dostluq qrupunun yaradılmasının iki ölkə arasında müxtəlif sahələrdə mövcud münasibətlərin daha da möhkəmlənməsinə öz töhfəsini verəcəyinə inamını ifadə edib.

Qrupun digər üzvləri də çıxış edərək, coğrafi baxımdan bir-birindən uzaqda yerləşməsinə baxmayaraq, iki ölkənin əlaqələrinin daim inkişaf etməsinin məmnunluq doğurduğunu bildiriblər. Tədbirin sonunda Meksika-Azərbaycan Dostluq Qrupunun inauqurasiyasına dair Protokol aktı imzalanıb. Tədbirdən sonra qrupun sədri M.A.Peres Navarrete, səfir M.Talıbov və qrupun digər üzvləri Deputatlar Palatasının plenar iclasında iştirak ediblər. İclas zamanı M.Talıbov protokol qaydasına uyğun olaraq, Palatanın prezidenti Serxio Qutyerres Luna tərəfindən salamlanıb. Sonda, səfir M.Talıbovla Palatanın Prezidenti arasında qısa görüş keçirilib. Tədbir Konqresin rəsmi kanalında canlı yayımlanıb və yerli KİV-lərdə işıqlandırılıb.

# Mahir Quliyevin puça çıxan ümidi...

## Həbsdəki keçmiş icra başçısı sabiq nazirdən əlini niyə üzdü?

***Yola salmaq üzrə olduğumuz həftə Sabunçu Rayon Məhkəməsinin inzibati binasında Biləsuvar Rayon İcra Hakimiyyətinin həbsdə olan keçmiş başçısı Mahir Quliyevin cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.***

Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hakimi Müşfiq Məmmədovun sədrliyi ilə keçirilən prosesdə məhkəmə istintaqının başa çatdığı elan olunub. Məhkəmədə bildirilib ki, növbəti iclasda dövlət ittihamçısı M.Quliyevə cəza istəyəcək. Proses martın 28-dək təxirə salınıb.

Qeyd edək ki, Biləsuvar Rayon İcra Hakimiyyətinin keçmiş başçısı Mahir Quliyev Dövlət Təhlükəsizliyi Xidmətinin 2020-ci il aprelin 29-da həyata keçirdiyi əməliyyat-istintaq tədbirləri nəticəsində saxlanılıb və məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.



M.Quliyev Cinayət Məcəlləsinin 179-cu (mənimsəmə və israf etmə), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə), 311.3.2-ci (təkrar rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirləndirilərək ittiham elan edilib.

Sabiq icra başçısına yüksək cəza istəniləcəyi təxmin edilir, çünki ona elan edilən ittihamlardan heç biri M.Quliyevin üzərindən götürülməyib. Üstəlik, məhkəmədəki çoxsaylı şahid ifadələrində Biləsuvar rayonunun keçmiş rəhbəri ilə bağlı bir çox rüşvət və korrupsiya faktları təsdiqini tapıb.

2020-ci il aprelin 30-da Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilən M.Quliyevin karyera yüksəlişində keçmiş nazirlərdən birinin adı hallanır. Həmin nazir həm də Baş nazirin eks müavinlərindən biridir.

Belə ki, müxtəlif vaxtlarda mediada yer alan, rəsmən təsdiqlənməsə belə, təkzib də edilməyən xəbərlərə görə, M.Quliyev sabiq kənd təsərrüfatı naziri, daha sonra Baş nazirin müavini olmuş İsmət Abbasovun qohumudur.

Bildirilir ki, ali təhsili və idarəçilikdə, dövlət qulluğunda heç bir iş təcrübəsi olmayan restoran müdirinin sürətli karyera yüksəlişi ancaq hakimiyyətdə yüksək post tutan himayəçisi sayəsində mümkün ola bilərdi. Mahir Quliyevin belə qohumcanlı vəzifə sarıdan bəxti gətirib. O, 2005-ci ildə Səbail bələdiyyəsinin sədr müavini, bir neçə ay sonra - 2006-cı ildə Astara rayonuna, 2011-ci ildə isə Biləsuvar rayonuna icra başçısı təyin olunub.

Vəzifədə olduğu müddətdə haqqında mediada çoxsaylı korrupsiya, rüşvət, yarıtmaz idarəçiliklə bağlı ittihamlar irəli sürülsə, barəsində Prezident Administrasiyasına çoxsaylı şikayətlər ünvanlansa da, "qüvvətli əl" onu qoruya bilib. Həmin "əl"in də məhz İsmət Abbasov olduğu vurğulanır.

Yeni iddialara görə, həbsdəki eks-başçı sabiq nazir və keçmiş vitse-premyerin sayəsində üzərindəki ittihamların yüngülləşdiriləcəyinə, şərti cəza, bu da mümkün olmadığı təqdirdə ən azından az cəza alacağına ümid edirmiş. Lakin M.Quliyevin artıq belə bir ümidinin qalmadığı söylənilir. Buna səbəb son vaxtlar İ.Abbasovun özü ilə bağlı da ilginc iddiaların ortaya atılmasıdır.

Ötən sayımızda da yazdığımız kimi, kənd təsərrüfatı naziri olduğu dövrdəki korrupsiya faktlarına görə İsmət müəllimin başı ciddi dərddədir. Qeyd edək ki, o, 2004-2013-cü illərdə kənd təsərrüfatı naziri, 2013-2018-ci illərdə isə baş nazirin müavini işləyib. Abbasovun qısa vaxtda böyük sərvətə sahib olması "Aqrolizinq" ASC-nin 2009-cu ildə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyinə verilməsindən sonra başlamışdı. Çünki bu ASC uzun illər boyu korrupsiya, dövlət vəsaitlərinin talandığı əsas qurumlardan birinə çevrilmiş, nəticədə eks-nazir də misilsiz var-dövlətə yiyələnmişdi. Abbasov nazir vəzifəsindən getdikdən sonra isə Hesablama Palatası "Aqrolizinq"də ciddi qanunsuzluqlar aşkarlamış, qurumda büdcə vəsaitlərindən qanunsuz istifadə, büdcə öhdəliklərinin icra edilməməsi, iş həcmlərinin artırılması, borcların uçotdan yayındırılması və digər maliyyə pozuntularına yol verildiyi nəzərə alınaraq, nəzarət tədbiri üzrə yoxlama materialları Baş Prokurorluğa göndərilmişdi. Elə bundan az sonra "Aqrolizinq" ASC-nin sədri Əli Bayramovun öz ərizəsi ilə işdən getməsi də çox şeydən xəbər verirdi. Üstəlik, İsmət Abbasovun çox keçmədən Bayramovu yüksək vəzifəyə - 1 saylı Şərab Zavodunun İdarə Heyətinin sədri təyin etdirməsi də onların arasındakı maraqlı bağlardan xəbər verirdi. Məsələ burasındadır ki, həmin zavod mətbuatda məhz İ.Abbasovun zavodu kimi tanınırdı. Yəni eks-nazir öz kadrına sahib çıxmışdı. Baş nazir müavini təyin edilməsindən yararlanaraq isə "Aqrolizinq"dəki çoxsaylı korrupsiya faktlarının "malalanmasına" nail olmuşdu.

Yeni iddialara görə, "Aqrolizinq"də İsmət Abbasov dövrünün təftişinə başlana bilər. Belə ki, ortada təxminən 10 il ərzində yüz milyonlarla manatın düzgün xərclənmədiyinə dair ciddi şübhələrə yol açan faktlar var; həmin faktlar həm Hesablama Palatasının, həm də Dövlət Maliyyə Nəzarəti Xidmətinin yoxlamaları ilə təsdiqini tapıb. Bu korrupsiya faktlarına görə kimsənin indiyədək hüquqi məsuliyyətə cəlb olunmaması ağlasığmazdır, elə ona görə də istintaq başlaması real hesab olunur.

Belə vəziyyətdə isə Mahir Quliyev qohumu olan eks-nazirin və sabiq vitse-premyerin dəstəyinə, onun imkanları, əlaqələri sayəsində cəzasının yüngülləşdirilməsinə necə ümid edə bilər? Hərçənd bəzilərinin fikrincə, İ.Abbasovun özü də başından bəri sabiq icra başçısının məsələsinə qarışmaq niyyətində olmayıb. Korrupsioner məmurlarla bağlı ölkə rəhbərliyinin qəti iradəsindən xəbərdar olan İsmət müəllim M.Quliyevin işinə qarışacağı təqdirdə bunun özü üçün də acı fəsadlar doğuracağından çəkinib...

***Sənan Mirzə***

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Regionlardan böyük gözlənti

## Nazirlik: "Regionların məhsul istehsalı və emalı üzrə ixtisaslaşması dərinləşəcək"




***"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində nəzərdə tutulmuş tədbirlər üç ildir ki, uğurla davam etdirilir. Regionların, o cümlədən kənd yerlərinin sosial-iqtisadi inkişafı sahəsində görülmüş işlərin davam etdirilməsi, eləcə də infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, yerlərdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədilə prezident İlham Əliyevin 29 yanvar 2019-cu il tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası bu gün də həyata keçirilir.***

İqtisadiyyat Nazirliyindən sorğumuza verilən cavaba görə, İlham Əliyevin bölgələrə mütəmadi səfərləri Dövlət Proqramının icrasını sürətləndirməklə, regionların tarazlı inkişafının təmin edilməsi, yeni iş yerlərinin yaradılması və əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi sahəsində görülən işlərə təkan verib: "İlham Əliyev tərəfindən müxtəlif rayon və şəhərlərin sosial-iqtisadi inkişafı və bəzi mühüm layihələrin icrası istiqamətində dövlət büdcəsində nəzərdə tutulmuş əsaslı vəsait qoyuluşu, həmçinin Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan ümumilikdə 286,96 milyon manat vəsaitin ayrılması ilə bağlı 55 Sərəncam imzalanıb. Ölkədə maliyyə sabitliyi və iqtisadi artım bərpa olunub, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda irəliləyiş əldə edilib. Ötən ilin yanvar-sentyabr aylarında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 62,9 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,8 faiz çox ümumi daxili məhsul istehsal edilib. Qeyri neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyər 6,2 faiz artmışdır. Bununla yanaşı, Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2021-ci ilin yanvar-sentyabr aylarında 36,6 milyard manatlıq və ya 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,5 faiz çox sənaye məhsulu istehsal edilib. Sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 19,6 faiz artıb".

Nazirlikdən verilən məlumata görə, Sabirabad Sənaye Məhəlləsinə iştirakçı kimi qeydiyyatdan keçmək üçün daxil olan müraciətlərin qiymətləndirilməsi nəticəsində ümumi investisiya dəyəri 10,28 milyon manat, iş yerlərinin sayı 150-dən çox olan 7 investisiya layihəsi barədə qərar qəbul edilib. Bundan başqa prezidentin 2019-cu il 13 sentyabr tarixli Fərmanı ilə yaratdığı Şərur Sənaye Məhəlləsinin tikinti işləri davam etdirilib. Hesabat dövründə regionlarda ənənəvi istehsal sahələrindən olan xalçaçılığın inkişafı istiqamətində tədbirlər görülüb. Həmçinin "Azərxalça" ASC tərəfindən regionlarda 5 yun və boyaq maddələrinin tədarükü məntəqələri (Naxçıvan şəhərində, Sabirabad, Qobustan, Şabran və Bərdə rayonlarında) tərəfindən əhalidən yun tədarükü davam etdirilib. Nazirlikdən onu da qeyd ediblər ki, dövlət Proqramı Bakı şəhəri və qəsəbələri, Abşeron iqtisadi rayonu (Abşeron və Xızı rayonları, Sumqayıt şəhəri), Aran iqtisadi rayonu (Yevlax, Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Zərdab rayonları, Şirvan və Mingəçevir şəhərləri), Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları), Gəncə-Qazax iqtisadi rayonu (Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Samux, Şəmkir, Tovuz rayonları, Gəncə və Naftalan şəhərləri), Quba-Xaçmaz iqtisadi rayonu (Şabran, Xaçmaz, Quba, Qusar və Siyəzən rayonları), Lənkəran iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları), Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Kəngərli və Şərur rayonları), Şəki-Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları), Yuxarı Qarabağ iqtisadi rayonu (Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli rayonları və Xankəndi şəhəri), Kəlbəcər-Laçın iqtisadi rayonu (Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonlarını) əhatə edir.

Dövlət Proqramının icrasından gözlənilən nəticələr isə regionların, o cümlədən kənd yerlərinin inkişaf potensialı daha da güclənəcək və bu potensialdan istifadənin səmərəliliyinin yüksəlməsi,regionlarda iqtisadiyyatın daha da şaxələndirilməsi, yeni müasir emal müəssisələrinin açılması, qeyri-neft sənayesini daha da inkişaf etdirməkdir. Bu, yerli iqtisadiyyatın rəqabətqabiliyyətliliyini daha da artıracaq. Kənd təsərrüfatı məhsullarının istehsal və emal həcmində yüksək artım dinamikası əldə ediləcək. Regionların məhsul istehsalı və emalı üzrə ixtisaslaşması dərinləşəcək. Qeyri-neft ixracının həcmi və çeşidi daha da artacaq, fermer tərəfdaşlığı və kənd təsərrüfatında kooperasiya, o cümlədən aqrar-sənaye inteqrasiyası inkişaf edəcək. Məhsuldarlıq və əlavə dəyər, məşğulluq imkanları regionlarda artacaq, xidmət sektoru daha da inkişaf edəcək. Regionların turizm potensialı daha da inkişaf edəcək, regionlarda KOB-ların sayı artacaq, onların fəaliyyəti genişlənəcək və yerli iqtisadiyyatda əlavə dəyərin artımına təkan verəcək. Kiçik fermer təsərrüfatları inkişaf edərək müasir və iri fermer təsərrüfatları yaranacaq. İstehsal olunan məhsul və xidmətlərin rəqabətqabiliyyətliliyi daha da artacaq; regionlarda kommunal xidmətlərin və sosial infrastrukturun keyfiyyəti daha da yüksələcək, yüksək sürətli fiber-optik genişzolaqlı internet və müasir rabitə xidmətləri ilə təchizat artacaq. Regionların enerji resursları ilə təminatı daha da yüksələcək, davamlı və tarazlı sosial-iqtisadi inkişafa nail olunacaq.

*Gülayə Mecid*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Türkiyə və Azərbaycan deputatları Kiprdə bayram tədbiri keçirəcəklər

***Türkiyə və Azərbaycan millət vəkillərinin iştirakı ilə Kiprdə böyük tədbir təşkil olunacaq. "Unikal" xəbər verir ki, tədbir Novruz bayramı ilə əlaqədər keçiriləcək.***

Diasporla İş üzrə Dövlət Komitəsinin, Azərbaycan-Kipr Dostluq Cəmiyyətinin və Girnə Amerika Universitetinin ortaq təşkilatçılığı ilə Türkiyə, Azərbaycan və Şimali Kipr Türk Respublikası millət vəkillərinin fəxri qonağı olduğu Türk dünyasının ortaq dəyəri olan Novruz bayramı ilə bağlı Girnə Amerika Universitetinin Spektrium Konqres Mərkəzində keçiriləcək. Tədbir 21 mart 2022-ci il tarixində baş tutacaq.

Tədbirdə Türkiyə Böyük Millət Məclisindən Azərbaycan, Kıpr, Özbəkistan, Türkmənistan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım, Orhan Erdem, Osman Mesten, İbrahim Aydemir, Türkiyə Prezidentinin baş müşaviri, TRT-nin İdarə Heyətinin üzvü Mustafa Akış iştirak edəcəklər. Eyni zanabda azərbaycanlı deputatlar Vüqar İskəndərov və Naqif Həmzəyev də bayram tədbirinə qatılacaqlar.

# Türkiyənin bir neçə kanalı "Azerspace-1"lə yayımlanır

***Azərbaycan Kosmik Agentliyindən ("Azərkosmos") "APA-Economics"ə verilən məlumata görə, bu ilin mart ayından etibarən Türkiyənin "TMB TV", "Akıllı TV", "Nurs TV" və "EuroTrio TV" "Azerspace-1" telekommunikasiya peyki üzərindən yayımlanır.***

Bu barədə "Unikal"a Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Kosmik Agentlikdən ("Azərkosmos") bildirilib. Məlumatda deyilir ki, "TMB TV" kanalında əsasən türkdilli dövlətlərin musiqi və mədəniyyətini əks etdirən proqramlar nümayiş olunur. "Akıllı TV" və "Nurs TV" televiziyalarında daha çox əyləncəli verilişlər təqdim edilir. "Azerspace-1" peykinin Avropa yayım şüasında yayımlanan "EuroTrio TV" kanalının gündəlik məzmununu isə Türkiyənin, o cümlədən beynəlxalq şirkətlərin ingilisdilli proqramları təşkil edir.

Kanalların yayım tezlikləri aşağıdakı kimidir:

"TMB TV", "Akıllı TV" və "Nurs TV" kanallarının yayım tezliyi: 11024/H/16500;

"EuroTrio TV" kanalının yayım tezliyi: 11095/H/30000.

# "Azərişıq"ın Tədris və İnnovasiyalar Mərkəzinin yubileyi

***"Azərişıq" ASC-nin Tədris və İnnovasiyalar Mərkəzinin yaradılmasının 10 illik yubileyi ilə bağlı tədbir keçirilib.***

"Tədris və İnnovasiyalar Mərkəzi - 10 il" adlı tədbirdə müəssisənin direktoru Araz Məmmədzadə keçən 10 il ərzində Tədris və İnnovasiyalar Mərkəzinin iş fəaliyyəti barədə ətraflı məlumat verib.

Daha sonra müəssisənin direktor müavini Etimad İsmayılov Tədris və İnnovasiyalar Mərkəzində bu dövr ərzində keçirilən layihələr haqqında danışıb.

Həmçinin Mərkəzin "Mühəndis Pedaqogikası" kafedrasının müdiri Samid İbrahimzadə müəssisədə keçirilən kurslarla bağlı informasiya verib.

Tədbir zamanı Tədris və İnnovasiyalar Mərkəzi ilə daha iki əməkdaşlıq müqaviləsi imzalanıb. Müqaviləyə əsasən mərkəz bundan sonra Bakı Peşə Hazırlığı Mərkəzi və "İndustrial Support and Training Services" MMC şirkətini ilə əməkdaşlıq edəcək.

## ATAA "Tripholi" şirkəti ilə turizm əlaqələri müzakirə edib

***Martın16-da Azərbaycan Turizm Agentlikləri Assosiasiyası ilə Şimali Kiprin "Tripholi" şirkəti arasında turizmin bərpası və inkişafına həsr olunan işgüzar görüş keçirilib.***

"Unikal" xəbər verir ki, yerli turizm şirkətlərinin və hotel şəbəkələrinin nümayəndələrinin qatıldığı tədbirin məqsədi postpandemiya dövründə turizmin bərpası və inkişafına dəstək olaraq xarici ölkələrlə əməkdaşlıq əlaqələrini genişləndirmək, eləcə də qarşılıqlı tanışlıq səfərlərinin təşkilini həyata keçirməklə turist sayının artırılmasına dəstək olmaqdır.

Tədbirdə çıxış edən Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının İdarə Heyətinin sədri Rüfət Hacıyev açılan yeni istiqamətlərin və ölkələrin turizmçilər üçün yeni imkanlar yaratdığını deyib. Assosiasiya sədri Şimali Kipr Türk Cümhuriyyəti ilə qarşılıqlı turizm əlaqələrinin genişləndirilməsinin turizmin inkişafına böyük töhvə verəcəyini bildirib. Rüfət Hacıyev Şimali Kiprdən olan turistlərə həm qış aylarında, həm də yay fəslində Azərbaycana səfər edərək ölkəmizi yaxından tanımağa dəvət edib. O turizm sənayesi nümayəndələrinin Şimali Kiprdən olan turizm şirkətləri ilə əməkdaşlığa hər zaman hazır olduqlarını diqqətə çatdırıb.

Azərbaycanda olduğu müddətdə ölkənin əksər turizm bölgələrinə səfər etdiyini deyən Şimali Kipr Türk Cumhuriyyətinin Bakı təmsilçisi Mustafa Kamal Beyazbayram Azərbaycanın turizm imkanlarını yüksək qiymətləndirdirib. O Azərbaycanın gözəl təbiətinin, qonaqpərvər xalqının, milli mətbəx zənginliyinin turistlər tərəfindən hər zaman sevildiyini bildirib.

Görüş çərçivəsində çıxış edən Tripholi şirkətinin Baş icraçı direktoru İsmail Abidin rəhbərlik etdiyi şirkətin Azərbaycanla birgə əməkdaşlıq etməkdə maraqlı olduqlarını bildirib. Baş icraçı direktor qarşılıqlı turizm səfərlərinin təşkili və turistlərin rahatlığını təmin etmək üçün yay fəslində Şimali Kiprə birbaşa çarter reyslarının təşkil ediləcəyini də diqqətə çatdırıb. İsmail Abidin Azərbaycanlı turistlərin Şimali Kiprdə asudə vaxtlarını səmərəli keçirmələri üçün istər hotellərdə,istərsə də digər istirahət məkanlarında lazımı şəratitin yaradıldığını bildirib.

50-ə yaxın yerli turizm sənayesi nümayəndəsinin qatıldığı görüşdə "Tripholi" şirkətinin fəaliyyəti və gələcək planları haqqında ətraflı məlumat verilib.

Tədbirin ikinci hissəsi B2B görüşlərlə davam edib.

## Dünyada yoluxma sayı 460 milyonu ötüb

***Dünyada koronavirusa yoluxanların sayı 460 milyonu, ölənlərin sayı isə 6,05 milyonu ötüb.***

Bu barədə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) məlumat yayıb. Gün ərzində yoluxanların sayı 1 679 216, ölənlərin sayı 1 751 nəfər artıb. Bununla da dünyada 460 280 168 nəfərin virusa yoluxması və 6 050 018 pasiyentin ölməsi təsdiqlənib.

Yoluxma sayına görə ABŞ, Hindistan, Braziliya və Fransa ilk dördlükdədir. ABŞ yoluxanların və COVID-19 infeksiyası səbəbindən ölənlərin sayına görə dünyada birinci pillədədir. Ölkədə koronavirusa yoluxanların sayı 78 865 157 nəfərə çatıb, 958 609 nəfər infeksiya səbəbindən vəfat edib. İkinci yerdə qərarlaşan Hindistanda 42 998 938 nəfərdə COVID-19 xəstəliyi təsdiqlənib, 516 072 nəfər ölüb. Siyahıda üçüncü pillədə qərarlaşan Braziliyada pandemiya dövrü ərzində 29 380 063 nəfər virusa yoluxub, onlardan 655 249 nəfəri ölüb.

## Bakı sakinindən hədə-qorxu ilə pul tələb edən şəxslər tutuldu

***Bakı sakinindən hədə-qorxu ilə pul tələb edən şəxslər tutulub.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, Nizami Rayon Polis İdarəsinin 24-cü Polis Şöbəsinə martın 9-da 3 nəfərin Bakı şəhər sakini Ə.Cəlilovu döyəcəkləri ilə hədələyib 1200 manat borcunu ödəmək üçün mobil telefonunu 1500 manata satdırıb pulunu götürmələri barədə müraciət daxil olub. Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində hədə-qorxu ilə tələb etmədə şübhəli bilinən paytaxt sakinləri F.Tağıyev, S.Tağıyev və M.Məmmədov müəyyən edilərək saxlanılıblar.

Araşdırma aparılır.

# İki dövlət qurumu İmişlidə monitorinq keçirdi

***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi tərəfindən Meliorasiya və Su Təsərrüfatı ASC ilə birgə çay məcralarında yerləşən qum-çınqıl karxanalarının fəaliyyətinin monitorinqi bu dəfə İmişli rayonunda həyata keçirilib.***



"Unikal" xəbər verir ki, İmişli rayonunda yerləşən Bəhrəmtəpə-1, Bəhrəmtəpə-2 və İmişli qum-çınqıl yataqlarının ərazilərində keçirilən yoxlamaların nəticəsində məlum olub ki, yerin təkindən istismar qaydalarına riayət olunmaması nəticəsində Araz çayının müasir məcrasının dəyişməsi, yaxınlıqda yerləşən yaşayış məntəqələrindəyeraltı suların səviyyəsi aşağı düşüb, minerallaşma dərəcəsi isə dəyişib.

Agentliyin Geoloji Ekspertiza və Reyestr şöbəsinin aparıcı mütəxəssisi geoloq Sadiq Əmiraslanov qeyd edib ki, karxanaların fəaliyyəti nəticəsində Araz çayının yeni məcrasındaçayın sağ və sol kənarlarında "oyuq"lar əmələ gəlib, çayın müasir məcrasından kənarda isə göllər və axmazlar yaranıb.

Açıq səthə malik olan yeraltı sulardan buxarlanma baş verdiyinə görə həmin sular yüksək minerallaşma dərəcəsinə malikdir. Bəhrəmtəpə-2 qum-çınqıl yatağının, 50 % ərazisində karxana fəaliyyəti nəticəsində dərinliyi 22 m-ə qədər olan göllər əmələ gəlib. Həmçinin göllərdə su səviyyəsinin aşağı düşməsi ilə qum-çınqıl yatağının ətrafındakı ərazilərdə qrunt sularının səviyyəsinin aşağı düşüb və kimyəvi tərkibində neqativ dəyişiklik baş verib.

Sadiq Əmiraslanov onu da vurğuladı ki, Araz çayının müasir və qədim məcrası ərazilərində karxanafəaliyyəti zamanı əmələ gəlmiş çuxurlar, gölməçə və göllərin uyğun litoloji tərkibə malik materiallarla rekultivasiya olunması məqsədəuyğun hesab edilir. Çayın müasir məcrasından kənarda, bərpası mümkün olmayan faydalı qazıntı materiallarının çıxarılması, gələcəkdə bu zona üçün su ehtiyatlarının tükənməsinə, çirklənməsinə və ətraf ərazilərdə ekoloji tarazlığın pozulmasına səbəb ola bilər.

Agentliyin monitorinq şöbəsinin müdiri Zaur Səidi öz növbəsində fəaliyyətiistismar qaydalarına uyğun olmayan karxanalar barəsində görülən tədbirlər haqqında danışıb. Belə ki, sözügedən bu ərazidə hələ 2020-ci ildə işində nöqsanlar aşkar olunan karxanaların fəaliyyəti dayandırılıb. 2021-ci ildə isə istismara icazə şərtlərini pozan karxanaların dağ-mədən aktları ləğv olunub və hasilat işləri qadağan edilib. Yataqayırma hüdudundan kənarda aparılan hasilat işləri ilə bağlı iddialar qaldırılıb.

Qeyd edək ki, Agentlik hasilat zamanı yol verilmiş nöqsanları müəyyən edir və "Azərbaycan Respublikasında faydalı qazıntı yataqlarının qanunsuz işlənməsi nəticəsində dəymiş ziyana görə normativlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 mart 2020-ci il tarixli 119 nömrəli Qərarına uyğun olaraq hesablama aparır. Ziyanın ödənilməsi məhkəmə qaydasında həyata keçirilir.

# Ali məktəb və kolleclərə ərizə qəbulu başa çatır

***Ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı ərizələrin qəbulu başa çatır. Dövlət İmtahan Mərkəzindən "Unikal"a verilən məlumata görə, indiyə qədər 90 810 abituriyent öz ərizəsini təsdiq edib.***



Ərizə qəbulunda həm cari, həm də əvvəlki illərin məzunları iştirak edirlər. İxtisas qrupları, eləcə də orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün qeydiyyat sayı ilə DİM-in saytında statistika bölməsində real vaxt rejimində tanış olmaq mümkündür.

Abituriyentlər ekabinet.dim.gov.az internet səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra (şəxsi kabineti olmayanlar) şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə Dövlət İmtahan Mərkəzinin müvafiq internet səhifəsinə (eservices.dim.gov.az/erizebak/erize) daxil olub, "Abituriyentin elektron ərizəsi" formasını doldurur və təsdiq edirlər (etdirirlər).

Ərizənin təsdiqi DİM-in məlumat bazasında abituriyent barədə olan məlumatların yetərli olub-olmamasından asılı olaraq iki üsulla həyata keçirilir (ərizənin hansı üsulla təsdiq ediləcəyi barədə məlumat proqram tərəfindən "Abituriyentin elektron ərizəsi" forması təsdiq edilənədək ərizəyə hər dəfə daxil olarkən ekranda göstərilir):

Abituriyentlərin əksəriyyəti ərizələrini özləri təsdiq edə bilirlər. Ərizəsini Sənəd Qəbulu Komissiyasında təsdiq etdirməli olan abituriyentlər tələb olunan sənədləri şəxsən təqdim etməklə saat 17:00-dək elektron ərizələrini müvafiq SQK-larda təsdiq etdirirlər.

SQK-ların siyahısı və onların fəaliyyət müddəti, ərizə qəbulu ilə bağlı xüsusi hallar, imtahanların keçirilməsi, müsabiqə şərtləri, tədris dili və xarici dil imtahanları ilə bağlı xüsusi hallar və digər məsələlərlə verilmiş keçiddə sağ tərəfdə ("Tələbə qəbulu haqqında elan Ali TM") tanış ola bilərsiniz.

Orta ixtisas təhsili müəssisələrinə qəbul haqqında elanın tam mətni ilə buradan tanış ola bilərsiniz.

# Rayonlarda sahələrin suvarma təminatı yaxşılaşdırılır

***Qusar rayonunda əkin və bağ sahələrinin suvarma suyu ilə təminatı yaxşılaşdırılır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, ölkəmizin bütün bölgələrində olduğu kimi, Qusar rayonunda da əkin və bağ sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.***

Hazırda rayon Suvarma Sistemləri İdarəsi tərəfindən yeni mövsümə hazırlıq işləri görülür. Bu məqsədlə torpaq məcralı kanallar lil və kol-kosdan təmizlənir, beton kanalların ətrafında təmizlik işləri aparılır. Həmçinin torpaq məcralı kanallar beton üzlüklə əvəz edilir. Bu da öz növbəsində su istehlakçılarını vaxtında və itkisiz suvarma suyu ilə təmin etməyə imkan verir.

Vaxtında görülən meliorativ tədbirlərin nəticəsidir ki, ötən suvarma mövsümündə təsərrüfat sahibləri sahələrini suvarmaqda heç bir çətinlik yaşamayıblar. Fermerlərin su ilə təminatında subartezyan quyularının da xüsusi rolu var. Onu da bildirək ki, son illər rayon ərazisində 41 subartezyan quyusu qazılıb. Onlar 9-u ötən il istifadəyə verilib. Cari ildə isə daha 3 subartezyan quyusunun istifadəyə verilməsi nəzərdə tutulub.

Qeyd edək ki, Qusar rayonunda 29 min 300 hektar suvarılan ərazi mövcuddur. Bu sahələr 1579 km uzunluğunda olan kanallar vasitəsi ilə suvarılır. Bu kanalların 1381 km-i torpaq, 187 km-i isə beton məcralıdır. Hazırda bağ və əkin sahələrinin su təminatının yaxşılaşdırılası məqsədi ilə rayonun Kuzunqışlaq kəndində elektrik nasos stansiyası inşa edilir. Nasos stansiyası istifadəyə verildikdən sonra qeyd olunan ərazidə suvarma təminatı nəzərəçarpacaq dərəcədə yaxşılaşacaq.

Ağdaşda meliorativ tədbirlər davam edir. Rayonda yaşayan su istifadəçilərinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması üçün Ağdaş Suvarma Sistemləri İdarəsi gücləndirilmiş iş rejimində çalışır. Əkin sahələrinin suvarılması üçün 19100 km-dən artıq suvarma kanalının və 1900 km-dən artıq kollektor drenaj şəbəkəsinin istismarı təşkil olunur, həmin kanallar üzərində olan qurğularda təmir işləri aparılır. Ötən il idarə tərəfindən bütün əkin sahələrinin suvarma işləri başa çatdırılıb. Bu il də bu sahələrin suvarılması planlaşdırılır ki, hazırda əkilmiş 15115 hektar sahənin birinci suvarılması yekunlaşıb. İdarənin balansında olan kanalların 1600 km-i torpaq məcralı, 393 km-i isə beton üzlüklü kanallardır. 2021-ci ildə Qaraoğlan beton üzlüklü kanalının 1 km-lik yararsız hissəsi bərpa olunaraq yenidən su istifadəçilərinin ixtiyarına verilib. Təmirdən öncə kanalın həmin 1 km-lik yararsız hissəsində su itkisi 40 faizə qədər olub. Ağdaş Suvarma Sistemləri İdarəsinin əsas arteriyalarından biri də sağ sahil magistral kanalıdır. Uzunluğu 1000 km-dən artıq olan kanal 18.000 hektara yaxın sahənin suvarılmasını təmin edir. Suvarma kanallarında təmir işlərinin aparılması su itkisinin qarşısının alınması ilə yanaşı fermerlərin işini daha da asanlaşdırır.

İdarənin xidməti ərazisində 39 ədəd nasos stansiya var. Bu nasos stansiyaların hər biri hazırda işlək vəziyyətdə saxlanılır. Artıq təmirə ehtiyacı olanlardan 3 ədədi təmir olunaraq yararlı hala gətirilib. Bundan başqa elektrik və üzən nasosstansiyalar da əsaslı və cari təmir olunur ki, qarşıdan gələn suvarma mövsümünə tam hazır olsun. Həmçinin kanallar və hidrotexniki qurğularda da təmir işləri görülür. Ağdaş Suvarma Sistemləri İdarəsinin əsas funksiyalarından biri də torpaq məcralı kanalların lildən təmizlənməsini həyata keçirməkdir. Bu işlər kanallarda mütəmadi olaraq davam etdirilir. Bir çox kəndin ərazisində yekunlaşan işlər hazırda Zeynəddin, Yanarx və Ləki ərazisində aparılır. Eyni zamanda Mürsəl kəndində, Hapıtlı kəndində və Yenicə kəndində olan kollektorlar da lildən tam olaraq təmizlənib. Bunun nəticəsində işlər ərazidə olan torpaqların şoranlaşmasının qarşısı alınır.

Bildirək ki, Ağdaş Suvarma Sistemləri İdarəsi Ağdaş rayonun 36550 hektar əkin sahəsinə xidmət edir. Suvarılma öz axımı və mexaniki üsulla aparılır. Əsas su mənbələri isə Türyançay, Kür çayı və Yuxarı Şirvan kanalıdır.

Siyəzəndə torpaq kanallar lil və kol-kosdan təmizlənir, hidrotexniki qurğularda təmir işləri görülür. Dilqəm Şərifov bildirib ki, torpaq mülkiyyətçiləri və femerləri vaxtında və itkisiz suvarma suyu ilə təmin etmək məqsədi ilə Siyəzən rayon Suvarma Sistemləri idarəsi tərəfindən yeni mövsümə hazırlıq işləri davam etdirlir. Bu məqsədlə idarənin əməkdaşları tərəfindən torpaq kanallar lil və kol-kosdan təmizlənir, hidrotexniki qurğularda və qapalı kanallarda cari təmir işləri görülür. Onu da qeyd edək ki, Siyəzən rayonunda 247 km uzunluğunda suvarma kanalları mövcuddur. Hər il plan-qrafikə uyğun olaraq torpaq məcralı kanallar beton üzlüyə alınır. Ötən il 2100 metr uzunıuğunda Zarat kanalının beton üzlüyə alınması nəticəsində 100 hektardan artıq sahənin suvarma suyu ilə təminatı yaxşılaşıb.

Qeyd edək ki, Siyəzən rayonunda 12-min hektardan çox suvarılan ərazi mövcuddur. Rayonun əsas suvarma mənbəyi Samur-Abşeron kanalı, Taxtakörpü-Ceyranbatan kanalı, Gil-gilçay və Ataçay çaylarıdır. Sahələr suyu vaxtında və itkisiz çatdırmaq məqsədilə son dövrlər rayonda 1685-ədəd hidrotexniki qurğu, 198 min 286 metr uzunluğunda qapalı supaylayıcı şəbəkə, üzərində 118 ədəd hidrotexniki qurğu olan 24 min 103 m uzunluğunda beton üzlüklü açıq suvarma kanalı və 2300 hektar ərazini əhatə edən 26 km açıq, 121-km isə qapalı drenaj şəbəkəsi çəkilib.



***H.İsgəndərov***




# DYP-dən bayramla əlaqədar sürücülərə müraciət

***Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) Novruz bayramı ilə əlaqədar yol hərəkəti iştirakçılarına müraciət edib.***

BDYPİ-dən "Unikal"a daxil olan müraciətdə deyilir: "Novruz bayramı ilə əlaqədar 2022-ci il mart ayının 20-dən 28-dək qeyri-iş günü olması və ötən illərin təcrübəsi deməyə əsas verir ki, belə uzunmüddətli istirahət günlərində şəhər sakinlərinin respublikanın müxtəlif regionlarına getməsi, bölgələrdən isə əhalinin əsasən paytaxta gəlməsi səbəbindən avtomobil yollarında nəqliyyatın hərəkət intensivliyi əhəmiyyətli dərəcədə yüksəlir.

Bununla yanaşı, bəzi sürücülərin tələskənliyi, mövsümi hava və mövcud hərəkət şəraitini düzgün qiymətləndirmədən ötmə və manevr etmə qaydalarını pozmaları, eləcə də müəyyən edilmiş sürət həddini aşmaları yollarda qəzaların baş verməə ehtimalını artırır.

Qəzaların qarşısının alınması, hərəkət iştirakçılarının təhlükəsizliyinin, onların rahat və fasiləsiz hərəkətinin təmin olunması, hər kəsin mənzil başına sağ-salamat çatması və bayramı xoş əhval-ruhiyyədə keçirməsi üçün dövlət yol polisi əməkdaşları qeyri-iş günlərində gücləndirilmiş iş rejimində xidmət aparacaq, küçə və yollarda nəzarət gücləndiriləcək.

Qeyd olunanları nəzərə alaraq, Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi bütün hərəkət iştirakçılarına, xüsusilə də sürücülərə yollarda diqqətli olmağı, sükan arxasına yorğun, yuxulu, dərman preparatlarının təsiri altında və ya sərxoş vəziyyətdə əyləşməməyi, yol hərəkəti qaydalarına ciddi riayət etməyi, yola çıxmazdan əvvəl nəqliyyat vasitəsinin texniki sazlığını yoxlamağı, piyadalara isə yolu yalnız onlar üçün müəyyən edilmiş yerlərdən keçməyi, azyaşlı uşaqları küçələrdə nəzarətsiz qoymamağı tövsiyə edir.

Eyni zamanda texniki baxışdan keçmənin son müddəti qeyri-iş günlərinə təsadüf edən nəqliyyat vasitələri sahiblərinin və sürücülərin inzibati məsuliyyətə cəlb edilməmələri üçün paytaxtın Sabunçu rayonu ərazisində yerləşən Texniki Müayinə Mərkəzi, Qaradağ rayonunda yerləşən (Sədərək Ticatət Mərkəzinin yanı) Müayinə Mərkəzi, habelə qeydiyyat hərəkətlərinin aparılması məqsədilə Baş Dövlət Yol Polisi İdarəsinin Qeydiyyat-imtahan idarəsi və respublikanın digər rayonlarındakı regional qeydiyyat-imtahan və texniki baxış şöbələri bayram günləri saat 09:00-dan 18:00-dək fasiləsiz olaraq fəaliyyət göstərəcək".

# İranda 6 bal gücündə zəlzələ oldu

***İranın cənubundakı Hörmüzqan əyalətində 6 bal gücündə zəlzələ baş verib.***

"Unikal" xəbər verir ki, Tehran Universitetinin Seysmologiya Mərkəzinin məlumatına görə, episentri Hörmüzqan vilayətinin Kuherd şəhərində olan 6 bal gücündə zəlzələ yerli vaxtla saat 02:45-də qeydə alınıb. Zəlzələnin 10 kilometr dərinlikdə baş verdiyi açıqlanıb.

Ətraf şəhərlərdə hiss edilən və panikaya səbəb olan zəlzələdə can və mal itkisi ilə bağlı hələlik açıqlama verilməyib.

Hörmüzqan əyaləti ölkənin cənubunda, Fars körfəzi sahilində yerləşir.



## Ermənilər Ukraynaya qarşı döyüşmək üçün Putinə müraciət etdi

***Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və törətdiyi terror aktlarında fəal iştirak edən erməni terrorçular indi də Rusiya ordusunun sıralarında Donbasda Ukraynaya qarşı döyüşmək istəyirlər.***

”Unikal” Ermənistanın “Past” qəzetinə istinadən xəbər verir ki, Rusiyameyilli və irqçi baxışları ilə fərqlənən “Erməni qartalları” terror qruplaşması bunun üçün Rusiya Prezidenti Vladimir Putinə müraciət ünvanlayıb.

Nəşrin məlumatına görə, dəstə başçısı Xaçik Asryan müvafiq məktubu Moskvanın Ermənistandakı səfiri Sergey Kopırkinə təqdim edib.

Bir müddət əvvəl təşkilatın rəsmi səhifəsində dəstənin “44 günlük müharibədə Azərbaycana hərbi, iqtisadi və mənəvi dəstək olan” Ukraynaya qarşı döyüşə hazır olduğuna dair məlumat yayılmışdı.

## "Rusiyada gizli səfərbərlik aparılır" - Venislavski

***”Rusiyada hazırda açıq səfərbərlik həyata keçirilmir, amma gizli səfərbərlik aparılır”.***

”Unikal” xəbər verir ki, bunu Ukrayna telekanallarının efirində Ukrayna Ali Radasının Milli Təhlükəsizlik, Müdafiə və Kəşfiyyat Komitəsinin üzvü Fyodor Venislavski bildirib.

”Açıq səfərbərlik, ümumi səfərbərlik (Rusiya Federasiyasında - red.) baş vermir, gizli səfərbərlik gedir. Özəl hərbi strukturlara muzdlular cəlb olunur. Baxmayaraq ki, onlara vəd edilən maaşların səviyyəsi yalnız pul üçün döyüşməyə hazır olanları qane etmir - daha çox, bütün mənzərəni başa düşürlər. Bu muzdlular isə onları nəyin gözlədiyini mükəmməl başa düşürlər, çünki onlar Rusiya Federasiyasının adi vətəndaşından fərqli olaraq nə qədər real itkilərin olduğunu başa düşürlər. Onlar isə Ukrayna ilə müharibəyə getməkdən çox çəkinirlər”, - Venislavski bildirib.

O bildirib ki, Rusiya gizli şəkildə ilk növbədə kadr itkilərini dolduracaq insan resurslarını səfərbər etməyə çalışır.

***Ağarza Elçinoğlu***

## "Rusiya Üçüncü Dünya Müharibəsini başlatdı" - Zelenski

***Rusiya ilə Ukrayna arasında müharibə davam edərkən, Ukrayna lideri Zelenski ABŞ mediasına müsahibə verib.***

”Unikal” xəbər verir ki, ”NBC News”a danışan Zelenski, “ Rusiya Üçüncü Dünya Müharibəsini başlatmış ola bilər. Putinin Ukraynaya təcavüzünün nəticələri hələlik məlum deyil, lakin bu hücumun genişmiqyaslı qlobal müharibəyə çevrilməsi ehtimalı var”, - ifadəsini işlədib.

“Heç kim bilmir ki, müharibə başlayıb, ya yox. Biz bunu 80 il əvvəl İkinci Dünya Müharibəsi başlayanda heç kim müharibənin genişmiqyaslı olacağını proqnozlaşdırmırdı. Bu müharibə bütün sivilizasiyanı risk altında qoyur”, - deyə müsahibəsində bildirib.

***Gülayə Mecid***

# İqtisadi müharibədən qazanan Çin olacaq - TƏHLİL

## "Səma imperiyası"nın qlobal yüksəlişi üçün tarixi şərait yaranıb



***Dünyada indiyədək Rusiya Federasiyası qədər həm kəmiyyət, həm də sərtlik baxımından bu sayda iqtisadi sanksiyalara məruz qalan ikinci bir ölkə olmayıb, yoxdur və çox güman ki, olmayacaq da. Qərb tərəfindən tədbiq olunan bu sanksiyalar Rusiya iqtisadiyyatının bütün sahələrinə aiddir və elə bir sferası yoxdur ki, onu əhatə etməsin. Bütün xarici şirkətlər də ardıcıl olaraq fəaliyyətlərini dayandıraraq Rusiya bazarını tərk edirlər.***

Bütün bunlar ilk mənfi nəticələrini artıq, göstərməkdədir. Ölkədə maliyyə sabitliyi getdikcə daha sürətlə pozulur, inflyasiya və bahalaşma sürətlənir, istehsal çökməyə başlayıb, bütün digər makroiqtisadi göstəricilər üzrə müvazinət isə pozulmağa doğru istiqamət götürüb. Ancaq Rusiya iqtisadiyyatı tam olaraq çökəcəkmi? Əsas sual bundan ibarətdir.

Yeri gəlmişkən, 2008-2009-cu illərdəki qlobal iqtisadi böhran da... Yəni hətta müharibə dərhal dayanarsa və sanksiyalar ardıcıl olaraq geri götürülərsə belə, ölkənin sanksiyalara qədərki vəziyyətə qayıtması üçün azı 5-10 il vaxt tələb olunur. Əks halda isə, bu müddət 15-20 ilə bərabərdir.

Amma bütün bunlara rəğmən, bir məsələ də var ki, o da bundan ibarətdir: qlobal istehsalçıların və bazarın yeni idarəçilərinin meydana gəlməsi üçün şanslar yaranıb. Məlum olduğu kimi dünya iqtisadiyyatı, xüsusən də sənayesi əslində iki hissəyə bölünür - istehsalçı və istehlakçı, yaxud emaledici və hasiledici ölkələr. Qərb və Avropa istehsalçı, emaledici ölkələrdir. Çin, Yaponiya, Cənubi Koreya və sair ölkələr də. Yaxın Şərq ölkələri, Rusiya, MDB ölkələri və s. isə resurs və istehlakçı ölkələr hesab olunurlar. İstehsalçı və yaxud emaledici, yəni iri sənaye ölkələrinin birtərəfli qaydada bu və ya digər sanksiyalar yolu ilə istehlakçı və resurs ölkələrini tam çökdürə bilmələri mümkün deyil. Çünki o zaman iri sənaye, emaledici və istehsalçı ölkələrin özlərinin də işləri istər-istəməz bərbad günə düşməli, qlobal miqyasda hasiledici-emaledici-istehsal-istehlak zənciri qırılmalıdır. Bunu anlamaq üçün alim olmaq lazım deyil.

Ümumiyyətlə, alıcıya qarşı qadağalar tətbiq etməklə satıcının işlərini asanlaşdırmaq qeyri-mümkündür. Bu mənada Rusiya dünya iqtisadiyyatı üçün nəhəng bazar və inkişaf etmiş əsas sənaye ölkələrinin hər birinin məhsulları üçün ”həzm orqanıdır”. Eyni zamanda, kölgə iqtisadiyyatının yüksək səviyyədə inkişaf tapdığı ölkələrdəndir.

Bütün bunlardan əlavə, Rusiyanın da əlində qarşı tərəfə təzyiqlər göstərmək üçün müəyyən iqtisadi alətlər var. Məsələn, ABŞ bu ölkədən enerji daşıyıcıların idxalına qadağa tədbiq etsə də, urana aid deyil. Amerikada 80 atom elektrik stansiyasından tam gücü ilə işləyən 60-ı ölkədə ümumi elektrik enerjisi istehsalında 20 faiz paya sahibdir. Bunun üçün tələb olunan nüvə yanacağının yarısı Rusiyadan, Qazaxıstandan və Özbəkistandan alınır. Rusiya buna embarqo tədbiq edə bilməzmi?

Və yaxud, götürək Almaniyanı. Avropa iqtisadiyyatının aparıcı qüvvəsi və hegemonu sayılan bu ölkə Rusiyadan enerji asılılığına birdəfəlik son qoya bilməz və bilmir də. Ona görə də müəyyən sahələrdə, xüsusən enerji istiqamətində əməkdaşlığı qoruyub saxlamağa məhkumdur. Rusiya logistik və digər çətinliklərə baxmayaraq, satış bazarını dəyişə bilməzmi?

Ümumiyyətlə, ötən şərhimdə də qeyd etdim, qlobal iqtisadiyyat Rusiyanın Ukraynaya hərbi müdaxiləsi fonunda birinciyə qarşı tətbiq olunmaqda davam edən sanksiyalar nəticəsində getdikcə daha çox təsirlərə məruz qalır. Odur ki, qlobal istehsal addım-addım dalana doğru irəliləyir.

Bu xüsusda real vəziyyət birbaşa olaraq məhz Çin iqtisadiyyatının xeyrinə işləyir. Qərb ilə Rusiyanın Ukrayna uğrunda ”savaşı” nəticəsində Çin dünya iqtisadiyyatında liderliyi tezliklə ələ keçirəcək. 1973-cü ildə Ərəb-İsrail müharibəsi zamanı ərəb dövlətləri koalisiyası ABŞ ilə Qərbi Avropa ölkələrinə neft satışına embarqo tətbiq etdiklərindən qiymətlər qalxdı. 1973-cü ilin oktyabrından 1974-cü ilin martınadək yanacaq böhranı yarandığından Amerikada avtomobil istehsalı çökdü. Nəticədə Yaponiya istehsalı olan avtomobillərinin satışı artdı.

2008-2009-cu illərdə qlobal maliyyə-iqtisadi böhranı zamanı da Amerika avtomobil sənayesi “öldü” və yapon avtomobillərinin satışı artdı. 2011-ci ilin martında Yaponiyada baş verən sunamidən sonra isə vəziyyət dəyişdi. Bu dəfə “udan” tərəf isə çox güman, Çin olacaq(azvision).

***Pərviz Heydərov***

# AFFA-nın yeni baş katibi Sərxan Hacıyev kimdir?

***Xəbər verdiyimiz kimi, bu gün AFFA-nın baş katibi dəyişib. Bu barədə qərar İcraiyyə Komitəsinin bu gün təşkil olunan iclasında verilib. AFFA-nın 2020-ci il yanvarın 28-də təşkil olunan Konfransında Nizamnaməyə uyğun olaraq həyata keçirilmiş struktur dəyişikliyi, Avro-2020-nin və Avro-2020 ilə bağlı hesabat işlərinin başa çatması, həmçinin müvafiq hüquqi prosedurlar nəzərə alınaraq, AFFA-nın baş katibi vəzifəsi bu günə qədər baş katib (eyni zamanda icraçı vitse-prezidenti) Elxan Məmmədovun müavini vəzifəsində çalışan Sərxan Hacıyevə həvalə olunub.***



**Sərxan Hacıyev kimdir?**

Sərxan Emin oğlu Hacıyev 1987-ci il iyulun 8-də Daşkənd şəhərində anadan olub. 1993-2004-cü illərdə Bakı şəhərində Məktəb-Lisey Kompleksinin 200 saylı orta məktəbində, sonra isə 43 saylı liseyində təhsil alıb. 2004-2008-ci illərdə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) təhsil alıb.

2006-2008-ci illərdə Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) bayrağı altında keçirilən uşaq-gənclər yarışlarında hakimlik edib. 2008-2009-cu illərdə həqiqi hərbi xidmətdə olub.

2009-cu ildən bugünədək AFFA-da aşağıda qeyd edilən vəzifələrdə işləyir:

- 2009-2011 - Beynəlxalq Əlaqələr şöbəsinin mütəxəssisi
- 2011-2012 - Beynəlxalq Əlaqələr şöbəsinin rəhbəri
- 2012-ci ildən bugünədək baş katibin müavini

2011-2013-cü illərdə AFFA və Liverpul Universitetinin "Futbolda idarəçilik" mövzusunda birgə təşkil etdiyi təhsil proqramında təhsil alıb.

2014-2015-ci illərdə UEFA və Lozanna Universitetinin "Futbolda idarəçilik" mövzusunda birgə təşkil etdiyi təhsil proqramında təhsil alıb.

2015-ci ildən etibarən UEFA nümayəndəsi kimi beynəlxalq futbol oyunlarının təşkilində iştirak edir.

2016-cı ildə Bakı şəhərində keçirilən 17 yaşadək futbolçulardan ibarət komandalar arasında UEFA Avropa Çempionatının Final mərhələsi turnirinin direktoru olub.

**UEFA nümayəndəsi**

**2012-2021-ci illərdə Azərbaycanda keçirilən mötəbər futbol tədbirlərinin təşkilat komitələrində işləyib:**

- 2012-ci il, FIFA 17 yaşadək qızlardan ibarət komandalar arası Dünya Çempionatı - Beynəlxalq Əlaqələr üzrə məsləhətçi
- 2013-cü il, Hərbçilər arasında Futbol üzrə 1-ci Dünya Kuboku - Beynəlxalq Əlaqələr üzrə məsləhətçi
- 2014-cü il, Futzal üzrə UEFA Kubokunun Final mərhələsi turniri / "Dördlər finalı" - Beynəlxalq Əlaqələr üzrə məsləhətçi
- 2019-cu il, UEFA Avropa Liqasının Final oyunu - Dövlət Qurumları ilə əlaqələndirici nümayəndə
- 2021-ci il, UEFA Avropa Çempionatının Final mərhələsi turniri / AVRO-2020 - Dövlət Qurumları ilə əlaqələndirici nümayəndə

Azərbaycan, rus, ingilis və türk dillərini bilir.

# "Millimiz hər üç güləş növü üzrə uğurlu çıxış etdi" - Namiq Abdullayev

***"Əminliklə deyə bilərəm ki, bu görüş bizim üçün böyük stimul olacaq".***

"Unikal" xəbər verir ki, bunu sərbəst güləş üzrə Azərbaycan yığmasının baş məşqçisi Namiq Abdullayev Prezident İlham Əliyevlə görüşdə deyib.

51 yaşlı mütəxəssis gələcək yarışlarda da uğur qazanmaq istədiklərini bildirib: "Sizi və xalqımızı sevindirmək üçün əlimizdən gələni edəcəyik. Bizimlə görüşdüyünüz üçün Sizə həm Azərbaycan Güləş Federasiyası adından, həm məşqçilər və idmançılar, həm də bütün güləş ailəsi adından dərin təşəkkürümüzü bildirirəm. Sizin idmana diqqət və qayğınızı hər zaman hiss etmişik. Bolqarıstanda keçirilən 23 yaşadək güləşçilərin Avropa çempionatından sonra bizi qəbul etməyiniz də bu diqqətin göstəricisidir. Bildiyiniz kimi, millimiz Avropa çempionatında hər üç güləş növü üzrə uğurlu çıxış etdi. Yunan-Roma güləşi üzrə 2 qızıl, 1 gümüş və 2 bürünc, qadın güləşi üzrə 1 qızıl, 1 gümüş və 2 bürünc, sərbəst güləşdə isə 4 qızıl və 3 bürünc medal qazandıq. Sərbəst güləşçilərimiz komanda hesabında Avropa çempionu oldu. Yunan-Roma güləşçilərimiz isə üçüncü yeri tutdu. Ümumilikdə 16 medal qazandıq. Azərbaycan 7 qızıl, 2 gümüş və 7 bürünc medal qazanaraq ümumi sıralamada birinci yeri tutdu. Bu da Azərbaycan



güləşi tarixində rekord nəticədir".

Abdullayev noyabrda yunan-Roma güləşi üzrə Dünya Kubokunun Azərbaycanda gerçəkləşəcəyini xatırladıb.

# Hakan Şükürə çatdı, ÇL-də 3-cü qolçu oldu

***"Lill"in hücumçusu Burak Yılmaz Çempionlar Liqasının (ÇL) 1/8 final mərhələsində "Çelsi" ilə cavab görüşündə komandasının təsəlli qoluna imza atıb - 1:2.***

Apasport.az saytının məlumatına görə, penaltidən fərqlənən Türkiyə millisinin forvardı turnirin pley-offunda qol vuran ən yaşlı 3-cü futbolçu olub.



36 yaş 244 günlüyündə bunu bacaran Burak yalnız Paolo Maldini ("Milan", 36 yaş 333 gün) və Rayan Giqqzdən ("Mançester Yunayted", 37 yaş 147 gün) geri qalır. Yılmaz həmçinin 36 yaşdan sonra ÇL-də ən çox qol vuran 3-cü oyunçudur. Türkiyəlinin aktivində 3 top varsa, Kriştiano Ronaldo 6, Filippo İnzagi isə 4 dəfə rəqib qapılarına yol tapıb.

Bundan əlavə, Burak Yılmaz turnirdə 13-cü qolunu vuraraq Türkiyə futbol tarixinin bu turnirdəki bombardiri Hakan Şükürə çatıb.

Qeyd edək ki, ilk oyunda da 0:2 hesabı ilə uduzan "Lill" Çempionlar Liqasında mübarizəni dayandırıb.

# Xavi: "Qalatasaray"la oyun bizim üçün finaldır"



***"Qalatasaray"a məğlubiyyət turnirdən kənarda qalmaq deməkdir. İlk oyunun birinci hissəsindəki çıxışı bəyənmədim. Bu dəfə matça daha intensiv başlamalıyıq".***

Bunu "Barselona"nın baş məşqçisi Xavi Ernandes Avropa Liqasının 1/8 final mərhələsində "Qalatasaray"la keçiriləcək cavab oyunu barədə danışarkən deyib.

İspaniyalı mütəxəssis "Nou Kamp"da qolsuz bərabərlik qeydə alındığından, İstanbuldakı qarşılaşmanın həlledici olacağını söyləyib: "Qalatasaray"la oyun bizim üçün finaldır. Rəqib üzərində heç bir üstünlüyümüz yoxdur. Qalib gələrək, Avropa arenasında mübarizəni davam etdirə biləcəyimizi göstərməliyik. Rəqib yaxşı müdafiə olunur. Biz isə topa sahib olmağa, boşluqlar tapmağa və daha çox qol imkanı yaratmağa çalışmalıyıq".

42 yaşlı çalışdırıcı martın 20-də La Liqanın XXIX turunda "Real"la keçiriləcək görüşü düşünmədiklərini vurğulayıb: "Hazırda bütün diqqətimiz "Qalatasaray"la oyunadır. "El Klasiko" barədə fikirləşmirik. "Real"la matça hazırlaşmağa vaxtımız olacaq. Bizim bu mövsüm əsas hədəfimiz Çempionlar Liqasına vəsiqə qazanmaqdır. Avropa Liqasının qalibi olmaq da bunun mümkün yollarından biridir".

Qeyd edək ki, bu gün keçiriləcək "Qalatasaray" - "Barselona" qarşılaşması Bakı vaxtı ilə saat 21:45-də başlayacaq.

# "Qalatasaray" "Barselona" səddini keçsə... - Mükafatın məbləği

***"Qalatasaray" Avropa Liqasının 1/8 finalında "Barselona" səddini keçəcəyi təqdirdə, futbolçular mükafatlandırılacaq.***

Qol.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, İstanbul təmsilçisinin prezidenti Burak Elmas 1/4 finala çıxsalar, oyunçulara ümumilikdə 650 min avro mükafat ayıracağını deyib.

Qeyd edək ki, bu gün keçiriləcək "Qalatasaray" - "Barselona" görüşü Bakı vaxtı ilə 21:45-də başlayacaq. Bu komandalar arasında ilk matç qolsuz bərabərliklə başa çatıb.

# Emeridən ilk

***"Vilyarreal"ın baş məşqçisi Unai Emeri karyerasında ilkə imza atıb.***

Qol.az "William Hill"ə istinadən xəbər verir ki, ispan mütəxəssisin çalışdırdığı komanda ilk dəfə Çempionlar Liqasının 1/4 finalına yüksəlib. Onun baş məşqçisi olduğu "Vilyarreal" 1/8 finalda "Yuventus"a qalib gələrək (3:0, ilk oyun - 1:1) növbəti mərhələyə adını yazdırıb.

Qeyd edək ki, Emeri daha əvvəl çalışdırdığı "Sevilya" (3 dəfə) və "Vilyarreal"la Avropa Liqasının qalibi olub.

# Burak Yılmaz ÇL-in tarixinə düşdü

***"Lill"in futbolçusu Burak Yılmaz Çempionlar Liqasının tarixinə düşüb.***

Qol.az "Opta"ya istinadən xəbər verir ki, Türkiyə millisinin üzvü ÇL-in 1/8 finalında "Çelsi"yə qarşı matçda qol vuraraq buna nail olub. Sözügedən görüşdə o, penaltidən hesabı açsa da, "Lill" 2 qol buraxaraq turnirlə vidalaşıb. Ancaq Burak (36 yaş 244 gün) ÇL-in pley-offunda qol vuran ən yaşlı üçüncü oyunçu olub.

Qeyd edək ki, bu göstəricidə ilk pillədə Rayan Qiqqz (37 yaş 148 gün), 2-ci pillədə Paolo Maldinidir (36 yaş 333 gün).